## Azərbaycanın müdafiə naziri Türkiyədə səfərdədir



**Türkiyə Respublikasının milli müdafiə naziri cənab Hulusi Akarın dəvəti ilə Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov fevralın 1-də bu ölkəyə səfər edib.**

Bu barədə "Şərq"ə Müdafiə Nazirliyindən məlumat verilib.

Bildirilib ki, səfər çərçivəsində general-polkovnik Z.Həsənovun qardaş ölkədə keçirilən "Qış təlimi - 2023" beynəlxalq təliminin "Yüksək Səviyyəli Müşahidəçi Günü"ndə iştirakı planlaşdırılır.



## KİV: Baydenin evində axtarış aparılıb

**ABŞ-ın Federal Təhqiqatlar Bürosu (FTB) Prezident Co Baydenin Rehobot-Biç şəhərindəki evində axtarış aparılıb.**

APA xəbər verir ki, bu barədə NBC öz mənbəsinə istinadən məlumat verib.

Axtarış Ədliyyə Nazirliyinin gizli sənədlərlə bağlı təhqiqatçı çərçivəsində aparılıb.


❐ № 18 (5779), 2023-cü il

Qiymәti 40 qәpik

ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 2 fevral 2023-cü il (cümə axşamı)




# BNA-dan səlahiyyət geri alındı

### Nəqliyyat Agentliyi daha cərimə edə bilməyəcək

**Bakı Nəqliyyat Agentliyi dayanma və ya durma qaydalarının pozulmasına görə cərimə edə bilməyəcək.**

"Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" 2022-ci il 16 dekabr tarixli Qanunun qüvvəyə minməsi ilə əlaqədar "İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nda da dəyişiklik edilib.

(səh.2)



## Azərbaycan-Türkiyə birgə universitetinin yaradılması önəmlidir

### Prezident İlham Əliyev Türkiyənin milli təhsil nazirini və TBMM-in bir qrup üzvünü videokonfrans formatında qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 1-də Türkiyə Respublikasının milli təhsil naziri Mahmut Özeri və Türkiyə Böyük Millət Məclisinin (TBMM) bir qrup üzvünü videokonfrans formatında qəbul edib.**

Görüşün videokonfrans formatında keçirilməsinə səbəb Türkiyə nümayəndə heyətinin üzvlərində COVID-19 testinin nəticəsinin pozitiv çıxmasıdır.

(səh.2)

## Azərbaycanda dövlət qulluqçularının reyestri yaradılacaq



**Azərbaycanda dövlət qulluqçularının reyestri yaradılacaq. Bu barədə məsələ Milli Məclisin iclasında müzakirə edilən "Dövlət qulluğu haqqında" qanuna dəyişiklikdə öz əksini tapıb.**

Dəyişikliyə əsasən, dövlət qulluqçularının reyestri dövlət qulluqçuları (o cümlədən, stajçı kimi və sınaq müddəti ilə qulluğa qəbul edilmiş şəxslər, habelə dövlət qulluğuna xitam verilmiş şəxslər də daxil olmaqla) barədə məlumatlardan ibarət dövlət informasiya ehtiyatıdır.

Dövlət qulluqçuları reyestri müvafiq icra hakimiyyəti müəyyən etdiyi orqan (qurum) tərəfindən aparılacaq. Qanunun 15-3.3-cü maddəsində nəzərdə tutulan qaydanın tələblərinin pozulması qanunla nəzərdə tutulmuş hallarda məsuliyyətə səbəb olacaq. Qanuna dəyişiklik müzakirələrdən sonra səsvermәyə qoyularaq birinci oxunuşda qəbul edilib.

# Ermənistan toqquşmalar meydanına çevrilir

### Türkiyə-Rusiya monitorinq mərkəzi Ermənistanla sərhədə yerləşdirilməlidir




**"Ağdamdakı Türkiyə-Rusiya monitorinq mərkəzi Ermənistanla sərhədə yerləşdirilməlidir". Bunu Milli Məclisin iclasında Parlamentin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc deyib.**

Deputat bildirib ki, dövlətimiz haqlı olaraq, Qərbin silahsız taborunun qanuniliyini tanımır və onlarla əməkdaşlığa getməyəcəyini bəyan edir: "Sual olunur, o missiya üzvlərini BMT-mi seçib, yaxud Avropa Birliyi nə vaxtdan təhlükəsizlik və hərbi təşkilat olub? Bölgəyə gətirilənlərin NATO-nun məxfi emissarları olmaduğu, qərarı isə Avroatlantik Alyansın hərbi-siyasi generallarının verdiyi şübhəsizdir. Ermənistanı Rusiya, İran, Türkiyə və Azərbaycanın əlindən almaq, bölgəyə beynəlmiləl muzdluları yerləşdirmək sabitliyə xidmət etməyəcək.

(səh.4)

# Azərbaycanda təxminən 30-40 min dayə işləyir

### Bundan sonra onlar da müvafiq sənədlə çalışacaqlar



**Dayə işləmək istəyənlər imtahan verərək müvafiq sənəd - lisenziya əldə edə bilər.**

Belə bir imkanı Təhsildə Keyfiyyət Təminatı Agentliyi yaradır. Məlumata görə, Agentlik "dayə" ixtisası üzrə formal təhsilə çıxış imkanı məhdud olan vətəndaşlara imtahanlarda iştiraka dəvət edir. TKTA-dan verilən məlumata görə, sözügedən ixtisas üzrə təhsil sənədi olmadan fəaliyyət göstərən dayələr səriştələrinin tanınması məqsədilə keçirilən imtahanlarda iştirak edə bilər.

(səh.4)



## Yeni tələb qoyuldu

### Avtomobillərin rəngi dəyişdirildikdə on gün ərzində dövlət qeydiyyatından keçirilməlidir

**Avtomobillərin rəngi dəyişdirildikdə on gün ərzində dövlət qeydiyyatından keçirilməlidir.**

Bu, Prezident İlham Əliyevin təsdiqlədiyi "Yol hərəkəti haqqında" qanuna dəyişiklikdə əksini tapıb. Dəyişikliyə əsasən, nəqliyyat vasitəsinin rəngi dəyişdirildikdə on gün ərzində dövlət qeydiyyatından keçirilərək uçota alınması tələbi qoyulub.

## Ötən ildən itkin düşən azərbaycanlı Fransada ölü tapıldı



**Əslən Azərbaycandan olan Gürcüstan vətəndaşı Fransada ölü tapılıb.**

Oxu.az bildirir ki, 30 yaşlı Qaracayev Elbrusun itkin düşməsi barədə 10 ay əvvəl xəbər yayılıb. Kvemo-Kartli bölgəsindən olan azərbaycanlı Fransanın qərbində yerləşən Nant şəhərində itkin düşüb. On ay ərzində ailəsi, dostları və yerli polis onun axtarışı ilə məşğul olublar. Fransa polisi hadisə ilə bağlı 19-22 yaş arası altı nəfəri saxlayıb. Onlardan üçü qəsdən adam öldürməkdə, üçü isə avtomobil yandırmaqda ittiham edilir. Şübhəlilərdən biri E.Qaracayevin meyitinin olduğu yer barədə məlumat verib. Ekspertiza meyitin üzərində çoxsaylı yara izi aşkarlayıb. Şübhəli şəxslər cinayəti törətdiklərini etiraf ediblər.

## 2 nəfər vəfat edib

### 39 yeni yoluxma faktı qeydə alınıb




**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 39 yeni yoluxma faktı qeydə alınıb, 44 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış şəxslərdən 2 nəfəri vəfat edib.

Azərbaycanda indiyədək ümumilikdə 827 983 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 817 698 nəfər müalicə olunaraq sağalıb, 10 087 nəfər vəfat edib, aktiv xəstə sayı 198 nəfərdir.

*Ölkədə son sutka ərzində 1 849, hazırkı dövrədək isə 7 489 399 test aparılıb.*



## Lombardlarla bağlı çoxlu şikayətlər var

Vahid Əhmədov deyib ki, məsələ qanunvericiliklə tənzimlənmir, qeydiyyatı da aparılmır

(səh.3)



## Terror hücumunda bütün oxlar İran rejimini göstərir

Tehranın hadisəni israrla "məişət hadisəsi" kimi göstərmək cəhdi də bu kontekstdə təsadüfi deyil

(səh.3)



# Azərbaycan-Türkiyə birgə universitetinin yaradılması önəmlidir

## Prezident İlham Əliyev Türkiyənin milli təhsil nazirini və TBMM-in bir qrup üzvünü videokonfrans formatında qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 1-də Türkiyə Respublikasının milli təhsil naziri Mahmut Özeri və Türkiyə Böyük Millət Məclisinin (TBMM) bir qrup üzvünü videokonfrans formatında qəbul edib.**

Görüşün videokonfrans formatında keçirilməsinə səbəb Türkiyə nümayəndə heyətinin üzvlərində COVID-19 testinin nəticəsinin pozitiv çıxmasıdır.

Azərbaycanla Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyini deyən dövlətimizin başçısı Mahmut Özerin və Türkiyə Böyük Millət Məclisinin bir qrup üzvünün ölkəmizə səfərinin önəminə toxundu və bu səfərin əlaqələrimizin daha da genişlənməsi işinə töhfə verəcəyinə ümidvar olduğunu bildirdi.

Təhsil sahəsində əməkdaşlıqda böyük nailiyyətlərin əldə olunduğunu bildirən Prezident İlham Əliyev iki ölkənin dövlət başçılarının razılaşdırdığı kimi Azərbaycan-Türkiyə birgə universitetinin yaradılmasının böyük önəm daşıdığını dedi.

Mahmut Özer Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Rəcəb Tayyib Ərdoğana çatdırmağı xahiş etdi.

Mahmut Özer Azərbaycan Respublikasının Tehrandakı səfirliyinin binasında törədilən terror aktı zamanı mühafizə xidmətinin rəhbəri Orxan Əsgərovun həlak olması ilə bağlı Prezident İlham Əliyevə başsağlığı verdi.

Dövlətimizin başçısı başsağlığına görə minnətdarlığını bildirdi. Prezident İlham Əliyev səfirliyin digər mühafizə əməkdaşının qəhrəmanlığı nəticəsində terrorçunun zərərsizləşdirildiyini və bununla da silahlı şəxsin səfirliyin başqa əməkdaşlarına və onların ailə üzvlərinə hücumunun qarşısının alındığını vurğuladı. Dövlətimizin başçısı hazırda Azərbaycan tərəfindən bu terror aktının hərtərəfli şəkildə araşdırıldığını diqqətə çatdırdı. Prezident İlham Əliyev vurğuladı ki, həmin şəxsin səfirliyimizin binasında törətdiyi terror hadisəsi prosesinin xeyli vaxt çəkməsinə baxmayaraq, İranın polis və təhlükəsizlik qüvvələri tərəfindən hər hansı ciddi tədbir görülməyib.

İkinci Qarabağ müharibəsində Azərbaycanın Zəfəri münasibətilə bir daha təbriklərini çatdıran qonaq bildirdi ki, xalqlarımız ən çətin dövrlərdə həmişə bir-birinin yanında olub.

Təhsil sahəsində əlaqələrimizin son illərdə çox sürətlə inkişaf etdiyini deyən Mahmut Özer Türkiyənin bu sahədə ölkəmizlə təcrübəsini bölüşməkdən məmnunluq hissi keçirdiyini bildirdi.

Görüşdə Şimali Kipr Türk Respublikasının Türk Dövlətləri Təşkilatının Səmərqənddə keçirilən Zirvə toplantısında təşkilat yanında müşahidəçi statusunun alınması prosesində üzv dövlət kimi Azərbaycanın göstərdiyi dəstəyə görə minnətdarlıq ifadə olundu.

# Azərbaycanla Əlcəzair arasında neft və qaz sahəsində əməkdaşlıq haqqında memorandum təsdiqlənib

**2022-ci il noyabrın 29-da Əlcəzair şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Əlcəzair Xalq Demokratik Respublikası Hökuməti arasında neft və qaz sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu" təsdiq edilib.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bununla bağlı Fərman imzalayıb.

Fərmana əsasən, Anlaşma Memorandumu qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Energetika Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin edəcək.

Həmçinin Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Anlaşma Memorandumunun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Əlcəzair Xalq Demokratik Respublikası Hökumətinə bildiriş göndərəcək.

# Qərbi Azərbaycan qaçqınlarının statusuna yenidən baxılması təklif edilib



**Milli Məclisin yaz sessiyası müddətində Qərbi Azərbaycan qaçqınlarının statusuna yenidən baxılması təklif edilib.**

Bu təkliflə Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Əziz Ələkbərov parlamentin dünən keçirilən plenar iclasında çıxış edib.

O qeyd edib ki, statusla bağlı qanunvericiliyə ediləcək dəyişikliklər Qərbi Azərbaycana qayıdış konsepsiyasına öz töhfəsini vermiş olacaq.

Xatırladaq ki, Qərbi Azərbaycan İcmasının Müşahidə Şurasının yekun iclasında Qayıdış Konsepsiyası qəbul edilib.

Konsepsiyaya əsasən indiki Ermənistan ərazisindən qovulmuş bütün azərbaycanlılar və onların törəmələrinin öz vətənlərinə qayıtmaq hüququ var. İcma Azərbaycan Respublikasının və Qərbi azərbaycanlıların məskunlaşdığı digər dövlətlərin əhali reyestri xidmətlərinin yardımından istifadə edərək və müvafiq beynəlxalq metodologiya əsasında İcma üzvlərinin siyahıyaalınmasını həyata keçirəcək. Bu cür siyahıyaalınmada effektiv vasitələrdən birinin aidiyyəti şəxslərin özünü təqdim etməsi olduğunu nəzərə alaraq, onları bu addıma təşviq etmək üçün vətənindən qovulmanın ciddi hüquq pozuntusu olması barədə geniş informasiya kampaniyası aparılacaq və təhlükəsiz və ləyaqətlə geri qayıtmaq yanaşmasının mahiyyəti geniş ictimaiyyətə izah ediləcəkdir.

# Deputatlar səfirliyimizə terror hücumundan danışdılar

## "Molla-fars rejimi İranda istintaqın ədalətli aparılmasına imkan verməyəcək"

**Milli Məclisin plenar iclasında Azərbaycanın İrandakı səfirliyinə terror hücumu qətiyyətlə pislənilib. Spiker Sahibə Qafarova bildirib ki, İslam Əməkdaşlığı Təşkilatının Parlament İttifaqı konfransında iştirak zamanı, o cümlədən İran parlamentinin sədri də daxil olmaqla keçirilən ikitərəfli görüşdə Tehranda səfirliyimizə qarşı törədilən terror aktı ilə bağlı müzakirə aparılıb.**

S.Qafarova görüşlərdə Azərbaycanın terror aktının hərtərəfli araşdırılmasını tələb etdiyini bir daha diqqətə çatdığını vurğulayıb.

*Millət vəkili Qüdrət Həsənquliyev deyib ki, Milli Məclisin iclaslarından biri İrandakı səfirliyimizə edilən hücuma, ümumən ölkəmizin xaricdəki diplomatik korpuslarının təhlükəsizliyinə həsr edilsin. O xatırladıb ki, son dövrdə Azərbaycanın xaricdə fəaliyyət göstərən beş diplomatik korpusuna hücum edilib. Deputat əlavə edib ki, xaricdə Azərbaycan səfirliklərinin təhlükəsizlik xidmətində silah olmalıdır:* "Biz başqa ölkələrin səfirliklərində oluruq və görürük ki, onların təhlükəsizlik xidmətlərinin əməkdaşları qoruyucu gödəkçə geyinir və silahlı olurlar".

*Millət vəkili Zahid Oruc "Tarixi torpaqlar haqqında" qanun qəbul olunması təklifi ilə çıxış edib. O bildirib ki, İrandakı 30 milyon azərbaycanlıdan səfirliyimizə qarşı terror aktı ilə bağlı həmrəylik istəyirik:* "Biz aydınlaşdırmağa çalışmalıyıq ki, İranın, Cənubi Azərbaycanın tarixi, Cənubi Azərbaycanın qəhrəmanları barədə nə bilirik? Ekspertlərimiz, tarixçilərimiz nə bilir? Daha peşəkar təlimə, maarifləndirməyə ehtiyac var. İranda bu yöndə yaradılacaq bir qığılcım "Harop"dan da təsirli olacağını görəcəyik. Ona görə də belə bir qanunun qəbulu vacibdir".





"İrandakı 30 milyon azərbaycanlıdan səfirliyimizə qarşı terror aktı ilə bağlı həmrəylik istəyirik"

Deputat Fəzail Ağamalı da bildirib ki, Azərbaycanın İrandakı səfirliyinə hücumu terror aktı kimi dəyərləndirilməlidir: "Molla-fars rejimi İranda istintaqın ədalətli aparılmasına imkan verməyəcək. Azərbaycan Dövlət Təhlükəsizliyi Xidməti də cinayət işi açıb. İnanıram ki, DTX-nin araşdırması nəticəsində terror aktına görə İranın molla-fars rejiminin məsuliyyət daşıdığı əksini tapmalıdır. İranla bütün əlaqələrə son qoyulmalı, layihələr dayandırılmalıdır. Eyni zamanda Azərbaycan-İran parlamentlərarası əlaqələr üzrə işçi qrupu da buraxılmalıdır".

*Deputat Nizami Səfərov beynəlxalq konvensiyalara əsasən, səfirliyin qorunmasının İranın vəzifəsi olduğunu vurğulayıb:* "Diplomatik nümayəndəliklərə hücumlar transmilli terror aktı kimi dəyərləndirilir. Konvensiyalara əsasən, səfirliyə hücumun hansı motivlə həyata keçirilməsindən asılı olmayaraq belə hücumlar terror aktı kimi qiymətləndirilir".

*Parlament üzvü Elnur Allahverdiyev qeyd edib ki, Tehrandakı səfirliyimizə hücum uzun müddət stimullaşdırılıb və hazırlanıb:* "Çünki Vətən müharibəsində qələbədən sonra İran Azərbaycana qarşı aqressiv münasibət sərgiləyir, sərhədlərimizdə təlimlər keçirir. Digər tərəfdən bu gün İranın Azərbaycandakı səfirliyinin necə qorunduğu göz önündədir. Həm də Azərbaycan ən stabil ölkələrdəndir".

*Deputat Əminə Ağazadə beynəlxalq konvensiyalara əsasən, diplomatik nümayəndəliklərin toxunulmaz olduğunu söyləyib:* "Terrorizmin digər cinayətlərdən fərqi siyasi motivlərinin olmasıdır. Azərbaycanın uğurlarını isə İran həzm edə bilmir. Azərbaycanın səmimi qonşuluq mövqeyinə baxmayaraq, İran fərqli mövqedən çıxış edir. Səfirliyə hücuma görə İran beynəlxalq hüquqi məsuliyyət daşıyır".

*Deputat Elman Nəsirov Azərbaycan-İran parlamentlərarası əlaqələr üzrə işçi qrupunun ləğvini təklif edib. Deputat Tehrandakı səfirliyimizə hücumun beynəlxalq terror əməli olduğunu vurğulayıb:* "Hədəf olaraq isə Azərbaycan dövləti, xalqı seçilib. Bu terrora cavab olaraq Azərbaycanın İrandakı səfiri geri çağırıldı. Milli Məclis də analoji addım atsın, Azərbaycan-İran parlamentlərarası əlaqələr üzrə işçi qrupunu ləğv edək".

Deputat Kamran Bayramov bildirib ki, İrandakı səfirliyimizə qarşı törədilmiş terror aktı Azərbaycana qarşı son dövrlər aparılan kampaniyanın nəticəsidir. Cinayətkarların ən ciddi məsuliyyətə cəlb olunması İrandan tələb olunmalıdır.

Deputat Afət Həsənova səfirliyimizə qarşı terror aktının molla rejiminin Azərbaycana münasibətdə növbəti təxribatı olduğunu bildirib.

**İsmayıl**

## Çevik Polis Alayına komandir təyin edilib





**Daxili İşlər Nazirliyinin Əlahiddə Çevik Polis Alayına (ÇPA) komandir təyin edilib.**

Bu barədə daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov müvafiq əmr imzalayıb.

Əmrə əsasən, bu vəzifəyə polis polkovniki Ramil Piriyev təyinat alıb.

Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin şöbə rəisi, polis polkovnik-leytenantı Elşad Hacıyev APA-ya məlumatı təsdiq edib.

*Qeyd edək ki, Əlahiddə Çevik Polis Alayının sabiq komandiri, polis general-mayoru Səhlab Bağırov bir neçə gün əvvəl vəzifəsindən azad edilib. O, DİN-in Baş İctimai Təhlükəsizlik İdarəsinin nəzdində yerləşən mərkəzə rəhbər təyin olunub.*

# BNA-dan səlahiyyət geri alındı

## Nəqliyyat Agentliyi daha cərimə edə bilməyəcək



**Bakı Nəqliyyat Agentliyi dayanma və ya durma qaydalarının pozulmasına görə cərimə edə bilməyəcək.**

"Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" 2022-ci il 16 dekabr tarixli Qanunun qüvvəyə minməsi ilə əlaqədar "İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nda da dəyişiklik edilib.

"Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanında 4.52-ci bənddən "həmin Məcəllənin 346.1-ci və ya 346.2-ci maddələrində nəzərdə tutulmuş inzibati xətanı törətmiş şəxs nəqliyyat vasitəsinin yanında olmadığı və həmin nəqliyyat vasitəsinin yol hərəkəti və piyadaların hərəkətinə maneə yaratdığı hallara münasibətdə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və ya Bakı Nəqliyyat Agentliyi, habelə" sözləri çıxarılıb.

Bu maddələr - 346.1. dayanma və ya durma qaydalarını pozmağa görə - iyirmi manat məbləğində cəriməni, 346.2. isə ümumi istifadədə olan nəqliyyat vasitələrinin dayanacaq meydançasında və ya 5.12, 5.13 yol nişanlarından 15 metrdən az yaxınlıqda digər nəqliyyat vasitələrinin dayanmasına və ya durmasına görə qırx manat məbləğində cəriməni nəzərdə tutur.

Dəyişikliyə əsasən, Bakı Nəqliyyat Agentliyindən bundan sonra göstərilən maddələr üzrə cərimə etmək səlahiyyəti alınıb.

# Oyun qaydaları dəyişməyib

## Putin zaman udmağa, Paşinyan isə erməni cəmiyyətini Moskvaya qarşı ayağa qaldırmağa çalışır

**Ermənistanın Baş naziri Nikol Paşinyan Rusiya Prezidenti Vladimir Putinlə telefon danışığı aparıb. Danışıq zamanı Paşinyan Laçın dəhlizi ilə bağlı "humanitar böhran"a toxunub. Baş nazir bunun aradan qaldırılması üçün Rusiya tərəfindən lazımi addımların atılmasının vacibliyini vurğulayıb.**

Tərəflər bu kontekstdə Rusiyanın Azərbaycanın Qarabağ bölgəsindəki sülhməramlı missiyasının fəaliyyətini müzakirə ediblər. Hər iki ölkə rəhbəri üçtərəfli sazişlərin icrasına da toxunublar. Bəzi ekspertlərin fikrincə, Qərbdən istədiyi dəstəyi ala bilməyən Nikol Paşinyan xeyli vaxtdır arxa çevirdiyi Rusiyaya yenidən üz tutmaq məcburiyyətində qalıb. Lakin analitiklər Paşinyanın Kreml rəhbərindən istədiklərini ala bilməyəcəyini iddia edirlər.

**Beynəlxalq Münasibətlər və Diplomatiya Araşdırmaları Mərkəzinin rəhbəri Samir Hümbətov "Şərq"ə açıqlamasında səslənən iddiaların əksini düşündüyünü deyib. Politoloq bildirib ki, Paşinyan Qərbdən üz döndərməyib və Qərb də İrəvana dəstəyini geri çəkməyib:** "Burada yeni bir oyun gedir. Oyun ondan ibarətdir ki, əslində Qərb Rusiyanı Ermənistandan tamamilə sıxışdırıb çıxartmağın yollarını axtarır. Elə bir metod axtarır ki, həm erməni hakimiyyəti, həm də erməni ictimaiyyəti Rusiyanı Ermənistandan atmaqda dirəniş göstərsin. Əlbəttə, indiki məqamda Qərb və Ermənistan üçün ən optimal variant Qarabağda, Laçın yolunda davam edən aksiyadır. Paşinyan aksiya məsələsini, daha doğrusu, yolun guya "bağlı olması" iddiasını Putin qarşısında qaldırmaqla, ondan yardım istəməklə Kreml rəhbərini çıxılmaz vəziyyətdə qoymaq niyyətindədir. Baş nazir sonra deyəcək ki, "baxın, Putindən kömək istədim, amma etmədi". Yəni Paşinyan erməni cəmiyyətini də Rusiya əleyhinə hazırlayır".



**S.Hümbətov vurğulayıb ki, Paşinyan nisbətən rahat hərəkət edir**: "Çünki Avropa İttifaqının keçmiş hərbçilərdən ibarət "mülki missiyası" bölgəyə, Ermənistan-Azərbaycan sərhədinə gəlmək üzrədir. Qərb də, Paşinyan da müxtəlif üsullarla Rusiyanı sıxışdırıb çıxarmağa çalışır. Putin isə indiki dönəmdə Cənubi Qafqazdakı məsələləri gərginləşdirməyin tərəfdarı deyil. Kremlin başı Ukraynaya qarışıb. Ona görə də Paşinyanı yola verir. Yəni Putin zaman udmağa, Paşinyan isə erməni cəmiyyətini Moskvaya qarşı ayağa qaldırmağa çalışır. Erməni baş nazir Kreml rəhbərinin onun istəklərini həyata keçirməyəcəyini yaxşı bilir. Putin də Laçın yolu və aksiya məsələsində İrəvana verəcək heç nəyi olmadığının fərqindədir. Çünki burada Azərbaycanla yanaşı, Türkiyə amili də mühüm rol oynayır".

**İsmayıl Qocayev**




# Terror hücumunda bütün oxlar İran rejimini göstərir

## Tehranın hadisəni israrla "məişət hadisəsi" kimi göstərmək cəhdi də bu kontekstdə təsadüfi deyil

**"Azərbaycan Respublikasının Tehrandakı səfirliyinin binasında törədilən terror aktı hazırda Azərbaycan tərəfindən hərtərəfli şəkildə araşdırılır". Bunu Prezident İlham Əliyev Türkiyənin milli təhsil naziri Mahmut Özeri və Türkiyə Böyük Millət Məclisinin (TBMM) bir qrup üzvünü videokonfrans formatında qəbul edərkən deyib.**

Dövlət başçısı bildirib ki, səfirliyimizin binasında törədilən terror hadisəsi prosesinin xeyli vaxt çəkməsinə baxmayaraq, İranın polis və təhlükəsizlik qüvvələri tərəfindən hər hansı ciddi tədbir görülməyib. Səfirliyin mühafizə əməkdaşının qəhrəmanlığı nəticəsində terrorçu zərərsizləşdirilib və bununla da silahlı şəxsin səfirliyin başqa əməkdaşlarına və onların ailə üzvlərinə hücumunun qarşısı alınıb.

Həqiqətən də, səfirliyimizə qarşı hücumun təşkil olunması və sonrasında yaşananlar bir daha İranın terrorçuluğu dövlət siyasətinə çevirdiyini əyani olaraq sübuta yetirdi. Azərbaycan səfirliyinə terror aktı üçün seçilmiş gün də təsadüfi olmayıb. Şəhərin bir tərəfində Azərbaycan səfirliyinə hücum edilir, digər hissəsində isə ermənilərin mitinqinə icazə verilir. İranda etiraz edən şəxsləri qaldırıcı kranlardan asır, həbs edirlər. Amma Laçın yolunun açılması tələbi ilə mitinq keçirən ermənilərə hər cür şərait yaradılır. Molla rejimi həyata keçirdiyi dövlər terroru ilə Azərbaycanın İsraildəki səfirliyinin fəaliyyətini əngəlləməyə, Azərbaycana öz aləmində "əzələ nümayiş" etdirməyə dair uğursuz həmlə etdi. İndi daha aydın olur ki, Londonda səfirliyimizə qarşı olan hücumun arxasında da molla rejimi olub. Həmin hücumu törədən qruplaşma İran fanatları olan qruplaşma ilə yaxın münasibətlərə malikdir. Molla rejimi bir qayda olaraq düşmənçilik apardığı siyasi hakimiyyətlərə qarşı "narazı kütlə" hazırlamağa çalışır. Bura təkcə dini fanatiklər deyil, həm də narazılığı təşkil etmək üçün digər alətlər də daxil edilir. Nə qədər təəccüblü olsa da, özünü islam dövləti adlandıran molla rejimi LGTB, radikal feminist qruplarla da sıx əməkdaşlığa, işbirliyinə malikdir.

İranın Azərbaycana qarşı siyasəti son iki ildə formalaşmayıb. Tehran 44 günlük İkinci Qarabağ müharibəsi dövründə İrəvana hər cür kömək etməyə çalışıb, ərazilərini Ermənistana silah tədarükü üçün açıb. Üstəlik, onlar Vətən müharibəsindən sonra da ermənilərə yanacaq tədarükündən tutmuş siyasi dəstəyə qədər yardım göstəriblər. Vətən müharibəsinədək İran bu siyasətini qonşuluq və din birliyi ilə pərdələyirdisə, savaş günləri Ermənistana verilən dəstək aşkar xarakter aldı. Ermənistana silah ötürülməsinə hər cür şərait yaratdı. Müharibədən sonra Qarabağdakı separatçılara Ermənistan nömrələri ilə yanacaq göndərən qüvvələrlə səfirliyimizə hücum təşkil edənlər eynidir. İranın keçmiş hakimiyyətləri də erməni həmkarları ilə sıx münasibətdə olublar. Ancaq yeni hökumət Azərbaycana qarşı daha aqressiv yanaşır. Özlərinin də tez-tez təkrarladığı kimi, "qırmızı xətt"i çoxdan keçiblər. Nikol Paşinyanın arvadını İrana dəvət edərək məscidləri gəzdirənlər Azərbaycan məscidləri ermənilər tərəfindən dağıdılanda, donuz saxlanılanda səs etməyiblər. Şuşadakı məscidimizi "İran məscidi" adı altında "təmir" ediblər.

**Siyasi şərhçi Asif Nərimanlı bildirib ki, Tehrandakı səfirliyimizə qarşı törədilən terror aktının əvvəlcədən planlaşdırılması fikri yayılan görüntülər və İran rejiminin rəsmi açıqlamaları fonunda ön plana çıxır.** Analitik qeyd edib ki, görüntülərdə terrorçunun səfirliyin önünə avtomobillə gəldiyi və binanın önündəki İran polisinə əli ilə işarə edərək, içəri daxil olduğu görünür. Burada diqqətçəkən məqam terrorçunun təkcə İran polisinə toxunmaması yox, həm də polisin davranışıdır: "Mühafizə köşkündəki İran polisi "kalaşnikovlu" terrorçuya qarşı heç nə etmir. Halbuki binaya daxil olarkən arxasınca atəş açaraq dayandıra, yaxud hansısa formada müdaxilə etməliydi. İran polisi nəinki müdaxilə etmir, ümumiyyətlə, heç nə olmamış kimi yerində əyləşməyə davam edir. Terror aktını "məişət hadisəsi" kimi təqdim etməyə çalışan İran tərəfinin rəsmi açıqlamaları ziddiyyətlidir. Tehran polisi "məişət zəmini" rəyini gücləndirmək məqsədilə terrorçunun səfirliyin önünə övladları ilə gəldiyini iddia edir. Videogörüntülərdə terrorçunun gəldiyi avtomobildə əlavə şəxsin olduğu görünmür. Avtomobildə azyaşlı uşağın olmadığını terrorçunun davranışı da təsdiq edir. Şəxs maşını sürətlə idarə edərək, səfirliyin binası önündəki avtomobilə çırpır. Əgər İran polisinin iddia etdiyi kimi, həqiqətən də, "ailə zəminində" hücum olsaydı, qatil öz övladları ilə gəlsəydi, avtomobili sürətlə digər maşına çırpmazdı. Bir daha vurğulayaq. İran polisi qəza törədən şəxsi saxlamaq əvəzinə, onu sanki Azərbaycan səfirliyinə ötürür. Məntiqlə, avtomobilini digər maşına çırpan bir şəxsin aqressiv, qəzəbli olduğunu görməli, onu zərərsizləşdirməli idi".

**Ekspert diqqətə çatdırıb ki, terrorçunun həyat yoldaşı azərbaycanlı deyil:** "İranda, adətən başqa ölkələrə sığınmaq istəyənlər Avropa səfirliklərinə üz tutur. Bu, həm müdafiə olunmaq, həm də mühacirətə getmək imkanı yaradır. Bəs indi niyə Azərbaycan səfirliyi seçilib? İran rejimi etirazların başlanmasından sonra "fövqəladə vəziyyət" tətbiq edib. Bu vəziyyətdə terrorçu "Kalaşnikov" avtomatını necə əldə edir və Tehranda heç bir postda saxlanılmadan səfirliyimizə yaxınlaşa bilir? Ümumiyyətlə, İranda avtomat silah əldə etmək bu qədər asandır? Terror hücumunda bütün oxlar İran rejimini göstərir. Tehranın terror aktını israrla "məişət hadisəsi" kimi göstərmək cəhdi də bu kontekstdə təsadüfi deyil".

**İsmayıl Qocayev**

# Böyük torpaq sahələrini sadə vətəndaşlar zəbt etməyib

## 400 minə qədər ev sənədsizdir, məsələ uzanır, həll olunmalıdır



**Parlamentdə sənədsiz evlər məsələsi də qaldırılıb. "Torpaq Məcəlləsində dəyişiklik edilməsi haqqında" qanun layihəsinin müzakirəsi zamanı çıxış edən deputat Razi Nurullayev bildirib ki, vətəndaş məcburiyyət qarşısında kənd təsərrüfatı təyinatlı torpaqlarda da ev tikir. R.Nurullayev deyib ki, böyük torpaq sahələrini sadə vətəndaşlar zəbt etməyib:**

"Bəlkə qanunsuz zəbt olunmuş həmin torpaqları geri qaytaraq? Sadə vətəndaşlar üçün əlacsızlıqdan hansısa yolla kommunikasiyası olmayan kənd təsərrüfatı torpaqlarında ev tikibsə, bu məsələni də nəzərə almaq lazımdır".

**Millət vəkili Fazil Mustafa bildirib ki, Bakıda sənədsiz evlərdə yaşayanlar polis şöbələrində qeydiyyatdan çıxarılır:** "Bu insanlar da Azərbaycan vətəndaşlarıdır. Onlar hara getməlidir? Bu vətəndaşlarımızı ölkə sərhədlərindən kənara çıxarmalıyıq? Bu problem həllini tapmalıdır".

**Parlamentin Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov qeyd edib ki, bələdiyyələrin xəritələrlə tam təmin edilməsi prosesi hələ başa çatmayıb:** "Ona görə bələdiyyələr bu gün qazilərə, ehtiyacı olan insanlara ev tikintisi üçün torpaq sahələri ayıra bilmir. Digər tərəfdən bu gün kənd təsərrüfatı torpaqlarının 30 faizi yollara ayrılıb. Çünki hər kəs öz pay torpağını becərir, pay torpaqları arasındakı yollarda da torpaqların 30 faizə qədəri qalır".

**Parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədr müavini Qüdrət Həsənquliyev bu gün müxtəlif təyinatlı torpaqlarda tikilən 400 minə qədər evin sənədsiz olduğunu nəzərə çatdırıb:** "Mən başa düşürəm ki, mühafizə zolaqları və belə sahələrə düşən evlərin sənədləşdirilməsi problemlidir. Lakin bu 400 min evin hamısı ilə bağlı vəziyyət belə deyil. Sanki bəzi məmurlar dövlətin torpağını xalqa vermək istəmir. Bəzən də olur ki, bir neçə qurum belə torpaqların təyinatının dəyişdirilməsi barədə razılığa gəlir, sonda Nazirlər Kabineti bunu təsdiqləmir, Baş nazirin kefindən asılı olur. Bu məsələləri qanunla tənzimləyək. Məsələn, yaşayış məntəqələrinə bitişik ərazilərlə bağlı səlahiyyət yerli icra hakimiyyəti orqanlarına verilsəydi, sənədsiz evlərlə bağlı problem həllini tapardı. Yaxud bu səlahiyyət İqtisadiyyat Nazirliyi ilə başqa bir nazirliyə verilsəydi, həll yolu tapılardı. Prezident də fərman verib, ancaq bu kimi problemlərə görə məsələ uzanır".

**Spiker Sahibə Qafarova isə "Baş nazirin kefindən asılı olur" ifadəsini yolverilməz sayıb:** "Qüdrət müəllim, siz təcrübəli deputatsınız, bu nə ifadədir işlədirsiniz? Qanun yol vermədiyi halda Nazirlər Kabineti bunu təsdiqləmir".

**İsmayıl**

# "Meyxanaçılara xüsusi diqqət yetirilməlidir"

## Fazil Mustafa: "Ölkədə olan İran şəbəkələri İrandakı ziyarətlərə gedənlər arasından seçilir"



**"Azərbaycanda xüms vergisi adı ilə milyonlarla pullar yığılaraq İrana göndərilir". Bu iddia ilə millət vəkili Fazil Mustafa çıxış edib. Deputat bildirib ki, bu, terrorizmin maliyyələşdirilməsidir:**

"Dini ziyarətlər tam dövlətin nəzarətində olmalı, müəyyən yerlərə ziyarət edənlər də riskli qrup kimi nəzərə alınmalıdır. Bizim qanunvericilikdə belə bir şey yoxdur, bunu təcili olaraq gündəmə gətirib müzakirə etməliyik".

**F.Mustafa qeyd edib ki, İrana ziyarətlərə də qanunvericilik səviyyəsində nəzarət olmalıdır:** "Digər tərəfdən, meyxanaçılar arasında, yas yerlərində yaradılmış xüsusi qruplar var, bunlar da nəzarətə götürülməlidir. Qeyd edim ki, ölkədə olan İran şəbəkələri İrandakı ziyarətlərə gedənlər arasından seçilir. Xüsusilə də qadınlar arasında çox böyük şəbəkələr var. Bunun qarşısını almaq lazımdır. Eyni zamanda yas yerlərində qaydalara, daha sonra meyxanaçılara xüsusi diqqət yetirilməlidir. Bu məsələlər qanunvericilik səviyyəsində həll olunmalıdır ki, həmin qüvvələr bu qədər ölkədə fəallaşa bilməsinlər".

**İsmayıl**

# Lombardlarla bağlı çoxlu şikayətlər var

## Vahid Əhmədov deyib ki, məsələ qanunvericiliklə tənzimlənmir, qeydiyyatı da aparılmır

**Dünən Milli Məclisin yaz sessiyası çərçivəsində ilk plenar iclası keçirilib. Dövlət Himninin səslənməsi ilə başlayan sessiyanın ilk iclasının gündəliyinə 21 məsələ daxil edilib. Parlament sədri Sahibə Qafarova bildirib ki, Ümummilli Lider Heydər Əliyevin yubileyi ilə bağlı Parlamentin yaz sessiyası çərçivəsində tədbirlər keçiriləcək.**

Spiker deyib ki, bugünkü qüdrətli Azərbaycan Ümummilli Liderin Vətənə, xalqa xidmətinin nəticəsidir: "Milli Məclisin komitələrinin Heydər Əliyevin yubileyi ilə bağlı iclasları olacaq. O cümlədən parlamentin Ümummilli Liderə həsr olunmuş xüsusi iclası keçiriləcək".

**"İctimai nəzarət adı altında məhkəmələrə basqılara son verməliyik"**

*Deputat Bəhruz Məhərrəmov bildirib ki, "İnformasiya Məcəlləsi" qəbul edilməlidir. O deyib ki, məhkəmə fəaliyyətinin ictimailəşdirilməsi proseduru da müəyyənləşdirilməlidir:* "Bir çox ölkədə hətta məhkəmələrdə şəkil çəkmək belə qadağandır. Mən hansısa variantın seçilməsinin vacib olduğunu demək istəmirəm. Ancaq biz ictimai nəzarət adı altında məhkəmələrə basqılara son verməliyik. Bununla bağlı məsələ parlamentdə xüsusi olaraq müzakirə olunmalıdır".

**"Karabakh Telecom" Qarabağda necə fəaliyyət göstərir?"**

*Deputat Etibar Əliyev Azərbaycanın müvafiq orqanlarını "Karabakh Telecom"un qanunsuz fəaliyyətinin qarşısını almağa çağırıb. Parlament üzvü deyib ki, Ermənistanda qeydiyyatdan keçən bir mobil şirkətin qanunsuz olaraq Azərbaycan ərazisində fəaliyyətini davam etdirməsi yolverilməzdir:* "Karabakh Telecom" mobil operatoru Qarabağda, Azərbaycan ərazisində necə fəaliyyət göstərir? Hətta 4G xidməti də təklif edir. Bu işi hansı beynəlxalq şirkətlər görür?". Deputat Azərbaycanın müvafiq orqanlarını "Qarabağ Telecom"un qanunsuz fəaliyyətinin qarşısını almaq üçün addımlar atmağa çağırıb.

*Etibar Əliyev bildirib ki, "Dövlət Qulluğu Məcəlləsi" qəbul edilməlidir. E.Əliyev deyib ki, publik hüquqi şəxslər yaradılan zaman qurumlar yenidən təşkil olunur:* "Bu halda 10-15 il dövlət qulluğunda işləyənlər bəzən kənarda qalır. Bəzən görürsən ki, dövlət qurumlarının rəhbərlərinin və rektorların 5-6 köməkçisi, müşaviri olur, sonra da onlar yüksək vəzifələrə təyin edilirlər. Niyə onlar dövlət qulluğu üçün test imtahanı və müsabiqədən keçməməlidir? Onlar da müsabiqədən keçməlidir".

**"Dövlət qulluqçuları üçün imtahan, sertifikatlaşdırma lazımsızdır"**

*Parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədr müavini Qüdrət Həsənquliyev isə qeyd edib ki, ölkədə neçə nazirliyin, nazirliklərdə neçə ştat vahidinin olması qanunvericiliklə tənzimlənməlidir:* "Anlayışlara da toxunmaq istəyirdim. Məvacib və maaş sözlərini işlədirik. Bunlardan biri olsun. Digər tərəfdən dövlət qulluqçuları üçün imtahan, müsabiqə, sertifikatlaşdırma və s. nəyə lazımdır?".



**"2019-cu ildən qanun layihəsinin müzakirəsi aparılır"**

*Millət vəkili Vahid Əhmədov "Lombardlar haqqında" qanun layihəsinin parlamentin yaz sessiyası müddətində müzakirəyə çıxarılmasını təklif edib. O xatırladıb ki, bu qanun layihəsinin qəbulu olduqca vacibdir:* "2019-cu ildən adıçəkilən qanun layihəsinin müzakirəsi aparılır. Hətta bununla bağlı xüsusi komissiya da yaradılmışdı. Çünki bu gün ölkədə lombardlarla bağlı cəmiyyətdə çoxlu şikayətlər var və bu məsələ heç bir qanunvericiliklə tənzimlənmir, qeydiyyatı da aparılmır. Məndə olan məlumata görə, həmin layihə hazırda Prezident Administrasiyasındadır və tələb edək ki, bizə müzakirə üçün verilsin. Biz də həmin məsələni gündəliyə daxil edək".

**"Əmanətlərin vergidən azad edilməsi müddəti uzadılsın"**

**Milli Məclisdə əmanətlərin vergidən azad edilməsi müddətinin uzadılması təklif olunub. Parlamentin iclasında İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vüqar Bayramov bildirib ki, banklarda olan əmanətlər 2016-cı il fevralın 1-dən etibarən 7 il müddətində vergidən azad edilmişdi:** "Vergi Məcəlləsinə əsasən, yerli bank və xarici bankın Azərbaycanda fəaliyyət göstərən filialı tərəfindən fiziki şəxslərin əmanəti üzrə ödənilən illik faiz gəlirləri, habelə emitent tərəfindən investisiya qiymətli kağızları üzrə ödənilən dividend, diskont faiz gəlirləri gəlir vergisindən azaddır. Ancaq bu müddət bu gün başa çatır. Bununla yanaşı, Vergi Məcəlləsinə edilən son dəyişikliklərdə bu maddə üzrə güzəşt müddətinin uzadılması nəzərdə tutulmadı. Bu o deməkdir ki, əgər bu maddədə düzəliş edilməyəcəksə, o zaman sabahdan əmanətlərə vergi hesablanacaq. Məqsədə uyğun olardı ki, ya məcəlləyə dəyişiklik edilib güzəşt müddəti daha 1 il uzadılsın, ya da sığorta olunan əmanətlər gəlir vergisindən azad olunsun. Birinci halda, növbəti 1 il müddətdən yeni mexanizm hazırlamaq mümkündür. Həmin mexanizm artıq 2024-cü ilin fevralında tətbiq olunan zaman hər hansı çətinlik yaratmaz. İkinci halda, əmanətçilərin əksər hissəsinin depozitləri sığortalanan olduğu üçün bu, əksər fiziki şəxsləri əhatə edəcək".

**"Xahiş edirik, məsələyə İqtisadi Şurada baxılsın"**

*Komitənin üzvü Vahid Əhmədov bu məsələ ilə bağlı dünən Mərkəzi Bankın sədri və Banklar Assosiasiyasının rəhbəri ilə danışdığını söyləyib:* "Onlar da bu məsələ ilə bağlı narahatdırlar. Bu məsələ İqtisadi Şurada müzakirə olunmalıdır. Xahiş edirik, məsələyə İqtisadi Şurada baxılsın".

**İsmayıl**



# Türkiyə mediası İranın Azərbaycandakı casus şəbəkəsinin detallarını üzə çıxarıb

## Nəşrin araşdırmasına görə, İran 1996-cı ildə "Azərbaycan masası" adlı xüsusi bölmə yaradıb və ölkəmizə 3500 casus göndərib

**Dövlət Təhlükəsizlik Xidmətinin İrana bağlı şəbəkəyə qarşı həyata keçirdiyi əməliyyat molla rejiminin ölkəmizdəki casusluq fəaliyyətini yenidən gündəmə gətirib. Məlum olub ki, İran hələ 1990-cı illərdən Azərbaycanda özünə bağlı şəbəkənin formalaşdırılması istiqamətində aktiv işlər görməyə başlayıb. Casusluq şəbəkəsinin formalaşdırılmasında əsas alət din olsa da, maliyyə və şantaj kimi vasitələrdən də istifadə olunub.**

Türkiyə mediası İranın Azərbaycandakı casus şəbəkəsi barədə yeni detalları üzə çıxarıb. "Diriliş Postası" nəşrinin araşdırmasına görə, İran 1996-cı ildə "Azərbaycan masası" adlı xüsusi bölmə yaradıb və ölkəmizə 3500 casus göndərib. Qəzetin yazdığına görə, İran xüsusi xidmət orqanları ETTELAT və SEPAH üzvlərindən Azərbaycan dilini, mədəniyyətini və coğrafiyasını bilən 4 min kəşfiyyatçı seçiblər. Sonra İranın Bakıdakı səfirliyi Azərbaycanda dini meyilli ailələr haqqında araşdırma aparaq, hesabat hazırlayıb. İran casusları ilə bu ailələrin qohumluğu həyata keçirilib. Ailə həyatı quraraq, Azərbaycanda yaşamağa başlayan İran casusları topladıqları gizli məlumatları Tehrana göndəriblər. İran casuslarının bəziləri siyasət, mədəniyyət, biznes sahəsindən tutmuş, mülki və hərbi sektorda da vəzifələrə yüksələ biliblər.

Qəzet yazıb ki, Azərbaycan xüsusi xidmət orqanları 1997-2011-ci illərdə İran casuslarının böyük hissəsini ifşa ediblər: "Ələ keçirilən casuslardan əldə olunan məlumatlara görə, onlar casusluq fəaliyyətinə başlamaq məqsədilə ailə həyatı qurduqları azərbaycanlı xanımları xüsusi hazırlanan kataloqdan seçiblər. Lakin vurğulanıb ki, İranın Azərbaycana göndərdiyi 3500 casusdan 700-ü hələ də gizlənməyə nail olub. Vurğulayaq ki, İranın casus şəbəkəsi xüsusilə 2015-ci ildə Nardaran hadisələrindən sonra gizlənməyə başlayıb və zaman-zaman dövlət təhlükəsizliyinə ciddi təhdidlər yaradıblar.

Türkiyə nəşri diqqətə çatdırıb ki, İran casuslarının ilk işi azərbaycanlı həyat yoldaşlarının "rəhbər" adlandırdıqları ayətullah Xameneiyə biət etmələrini təmin etmək, namazlarını və digər ibadətlərini şiə məzhəbinə uyğun yerinə yetirmək olub. Gizli üsullarla Azərbaycanda məskunlaşan casuslar öz vəzifə sahələrində kəşfiyyat məlumatları toplamağa başlayıblar. O da qeyd edilib ki, Azərbaycan qanunlarına əsasən, evləndikdən 5 il sonra əldə etdiyi vətəndaşlıq hüquqları ilə daha geniş imkanlar qazanan İran agentlərinin vəzifə təlimatları da dəyişdirilib. Vətəndaşlıq hüququ olanlar daha strateji sahələrə yönəldilib. Bir sıra agentlər kommersiya sahəsinə cəlb olunarkən, digərləri mülki və hərbi diplomatiya, QHT-lər, incəsənət və ilahiyyat kimi sahələrə sızıblar.

Azərbaycanın Tehrandakı səfirliyinə hücum edən, bir vətəndaşımızın şəhid olmasına səbəb olan Yasin Hüseynzadənin də həmin komandadan olduğu müəyyən edilib. Hüseynzadənin Urmiyada kitab satıcısı işləyən qardaşı Rəhman Hüseynzadənin azərbaycanlı qadınların tələyə salınması prosesində mühüm fiqur olduğu və SEPAH-da xüsusi vəzifələrə sahib olduğu bəlli olub. Professor Dönmez Emre bildirib ki, türklərin milli təəssübkeşliyini saxlaması həm Rusiya, həm də İran tərəfi üçün daim ən böyük təhlükə sayılıb. Onun sözlərinə görə, İran tərəfi türklərin milli ideyalarını, coğrafi bağlarını yenidən bərpa etmək üçün atdıqları addımları öz varlığının sonu kimi görüb: "Bu səbəbdən türklərə "ya dinsiz, ya şiə ol" deyiblər və buna nail olmaq üçün hər cür cəhdi ediblər. İndi öz milli kodlarımıza geri dönüş kənar qüvvələrdə təşviş səbəb olur. Səfirliyə son hücum bunun bariz göstəricisidir".

Nəşr əlavə edib ki, Azərbaycanın təhlükəsizlik mənbələrinin məlumatına görə, yanvarın 27-də həyata keçirilən terror planı bütün səfirlik əməkdaşlarının öldürülməsi və qətlin maşınına minərək hadisə yerini tərk etməsi olub. Lakin mühafizəçilərin müqaviməti planı alt-üst edib. Terrorçunu zərərsizləşdirən azərbaycanlı mühafizəçilər qətlianın qarşısını alıblar. İran polisinin silahlı basqına rəğmən, Tehranın ən strateji nöqtəsinə 30 dəqiqə ərzində gəlib çıxa bilməməsi də qəzetin diqqət yönəltdiyi məqamlardan olub. Vurğulanıb ki, gərginlikdən sonra Azərbaycan hökuməti Tehran səfirliyini bağlayıb. Diplomatik əlaqələr Təbriz konsulluğu vasitəsilə davam etdirilib. Qeyd olunub ki, bu addım İran rejiminə qarşı narahatlığı göstərməklə yanaşı, bizim üçün əsas mərkəzin Güney Azərbaycan olması mesajının da verilməsidir.

*Qeyd edək ki, Dövlət Təhlükəsizlik Xidmətinin və Daxili İşlər Nazirliyinin casus əməliyyatları çərçivəsində "Salamnyus" və "İnter.az" xəbər saytlarının rəhbərləri də daxil olmaqla bir neçə media nümayəndəsi saxlanılıb. Ümumən respublika üzrə həyata keçirilən əməliyyatlarda 60-yaxın şəxs İrana casusluq şübhəsi ilə həbs olunub.*

**İsmayıl Qocayev**

# "Vasif Talıbov həzrətləri nə istəyibsə, onu edib"

## Tural Abbaslı: "O, Naxçıvanı monarxiya, krallıq, şeyxlik kimi yönəldib"

**Dövlət Təhlükəsizliyi Xidmətinin Naxçıvanda keçirdiyi əməliyyatlardan sonra ciddi faktlar ortaya çıxarılıb. Bu əməliyyatların nəticəsində Naxçıvanın ləğv edilmiş Dövlət Gömrük Komitəsinin şöbə rəisi Mənsur Əsgərov, muxtar respublikanın maliyyə naziri Rafael Əliyev və Şəhərsalma və Arxitektura Komitəsinin sədri Hicran Rüstəmov həbs edilib.**



"Cəmi üç vəzifəli şəxsin mənimsədiyi vəsait yarım milyon manat həcmindədir"

Bu şəxslərin 500 milyon manata yaxın vəsaiti mənimsədiyi açıqlanıb. Araşdırmalar dərinləşdirildikcə, daha ciddi faktlar, böyük məbləğlər ortaya çıxıb. Məlum olub ki, Vasif Talıbovun yaxın ətrafına məxsus şirkətlər həm vergidən yayınıblar, həm də bu şirkətlərin Naxçıvana idxal etdiyi məhsullardan gömrük rüsumu alınmayıb. Bundan başqa, Naxçıvana ayrılan dotasiyadan tikinti-quruculuq işləri üçün nəzərdə tutulan vəsaitlər də mənimsənilib. Büdcədən oğurlanan, qeyri-leqal yollarla əldə edilən vəsaitlər hesabına böyük şirkətlər yaradılıb, bahalı əmlaklar alınıb. Son məlumata görə, Naxçıvanın Penitensiar Xidmətinin rəisi, ədliyyə general-mayoru Tofiq Həsənov da həbs edilib. General vəzifə səlahiyyətlərindən sui-istifadə etməklə xüsusilə külli miqdarda mənimsəmədə və rüşvət almada şübhəli bilinib.

**Naxçıvanda aparılan təmizləmə prosesini "Şərq"ə dəyərləndirən AĞ Partiyanın sədri Tural Abbaslı deyib ki, Naxçıvanda Vasif Talıbovun 28 illik fəaliyyəti araşdırılarkən məlum olur ki, Azərbaycanın dövlət büdcəsinə milyardlarla manat vəsait vurulub, dotasiya pulları yeyilib. Partiya rəhbəri qeyd edib ki, gömrük rüsumlarından, vergilərdən ciddi yayınmalar aşkarlanıb:** ""Gömrük" və "vergi" adı altında toplanan vəsaitlər dövlət büdcəsinə keçirilməyib. İş adamlarının əmlaklarına əl qoyulub. Biznes sahələri monopoliyaya götürülüb. Naxçıvan sözün həqiqi mənasında muxtar, hətta müstəqil, əlahiddə zona kimi idarə olunub və Bakıdan asılılığı sıfıra endirib. Özü də monarxiya, krallıq, şeyxlik kimi yönəldilib. Vasif Talıbov həzrətləri nə istəyibsə, onu edib. Cəmi üç vəzifəli şəxsin mənimsədiyi vəsait yarım milyon manat həcmindədir. Təbii ki, mənimsənən bütün vəsait dövlətə geri qaytarılmalıdır. Dövlətə vurulan ziyan ödənilməlidir. Talıbovlar ailəsinə məxsus bütün əmlaklara birmənalı həbs qoyulmalıdır. Qanunsuz əməl sahibləri mütləq və ən sərt şəkildə cəzalandırılmalıdır ki, digərlərinə də görk olsun. Qanunun aliliyi sübut olunmalıdır, hamı bilməlidir ki, insanlar qanunlardan üstün ola bilməz. Bu, həm də dövlətçilik sütunlarının formalaşması üçün lazımdır. Əgər kimsə cəzasız qalsa, törətdiyi cinayətlərə görə məsuliyyətə cəlb olunmasa, onların əməlləri digərləri üçün "stimul" olacaq. Belə halda hansısa korrupsioner məmurun başqa bir rüşvətxorla əvəzlənməsi heç nəyi dəyişməyəcək. Məsələn, son zamanlar müşahidə edirik ki, bəzi rüşvətxor məmurların üzərinə həbs qoyulmuş əmlakları bir müddət sonra onlara geri qaytarılır. Bu, təhlükəli və çox ziyanlı tendensiyadır".

**T.Abbaslı vurğulayıb ki, büdcədən mənimsənilən hər bir manat müsadirə olunmalıdır:** "Necə olur ki, Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayevin araşdırmaları nəticəsində əlilliyi "saxta" elan olunmuş vətəndaşdan illərlə aldığı müavinət qəpiyinədək geri alınır, amma milyardlarla manat oğurlamış generalların, icra başçılarının pulu onlarda qalır?! Bu, onların halal malı deyil ki, toxunulmasın. Korrupsiyanın kökünü kəsmək istəyiriksə, qanunsuz yolla əldə olunmuş bütün mal-mülk müsadirə olunaraq büdcəyə qaytarılmalıdır".

**İsmayıl Qocayev**

# Azərbaycanda təxminən 30-40 min dayə işləyir

## Bundan sonra onlar da müvafiq sənədlə çalışacaqlar

**Dayə işləmək istəyənlər imtahan verərək müvafiq sənəd - lisenziya əldə edə bilər. Belə bir imkanı Təhsildə Keyfiyyət Təminatı Agentliyi yaradır. Məlumata görə, Agentlik "dayə" ixtisası üzrə formal təhsilə çıxış imkanı məhdud olan vətəndaşlara imtahanlarda iştiraka dəvət edir. TKTA-dan verilən məlumata görə, sözügedən ixtisas üzrə təhsil sənədi olmadan fəaliyyət göstərən dayələr şərtişlərinin tanınması məqsədilə keçirilən imtahanlarda iştirak edə bilər.**

Ərizəçilər bunun üçün müraciət qaydaları, tələb olunan sənədlər və imtahan barədə ətraflı məlumat yerləşdirilmiş keçiddən istifadə edə və imtahanlarda iştirak etmək üçün qeydiyyatdan keçərək tələb olunan sənədləri (qfitt@tkta.edu.az) ünvanına göndərə bilərlər. Qiymətləndirmə nəticəsi müsbət olan müraciətçiyə müvafiq modul üzrə sertifikat təqdim ediləcək.

Bu o deməkdir ki, dayə peşəsi də modernləşir artıq. Kimsə övladı üçün dayə axtarışına çıxdıqda, müraciət edənlərdən lisenziyasının olub-olmadığını soruşacaq. Lisenziyalı dayələr daha güvənli, daha savadlı, bilikli hesab ediləcəklər. Adətən dayələr tanış-bilişlər, qohumlar vasitəsilə tapılır. Düzünü desək, elanlara inananlar da azdır. Elanda hər kəs özü haqqında müsbət rəy yaza, yüksək keyfiyyətlərə malik olduğunu qeyd edə bilər. Amma reallıqda da belədirmi, bunu təcrübə, yəni uşağın üzərində aparılacaq təcrübə göstərir. Bəzən də sonradan məlum olur ki, dayə uşağa yaxşı qulluq etməyib, kobud davranıb, Allah uzaq eləsin, döyüb, işgəncə verib. Bu cür hallar yaşanmasın deyə, valideynlər tanıdıqları, etibar etdikləri adamların məsləhəti ilə dayə seçirlər. Sınanmış dayələri işə "qəbul edirlər".

**Sosioloq Lalə Mehralı "Şərq"ə açıqlamasında qeyd etdi ki, TKTA-nın dayə sertifikatı əldə etmək imkanı yaratması, əlbəttə, bu baxımdan müsbətdir, çünki bu, kimlər üçünsə faktiki iş yeri, həm də valideynlər üçün arxayınlıq hissinin təmini olacaq:**

- Hər bir ana istəyər ki, övladını savadlı, bilikli, dünyagörüşlü, təcrübəli, mehriban, canıyanan dayəyə etibar etsin. Ümumiyyətlə, mən dayə ilə uşaq böyütməyin hər zaman qəti əleyhinə olmuşam. Hər bir ana övladını özü böyütməlidir. Əgər bu, müəyyən səbəblərdən mümkün deyilsə, ana məcburiyyət qarşısında işə çıxmalıdırsa, harasa səfər etməlidirsə, bu zaman uşaq ancaq yaxın qohumlara, ailənin digər üzvlərinə etibar edilməlidir. Ana uşağın üstündə əsir, yeməyini vaxtlı-vaxtında verir, altını dəyişir, yatızdırır, dərmanları varsa, onları içirdir, bütün bu işləri dayə ana kimi, ana nəvazişi, ana diqqəti ilə yerinə yetirə bilər? Təsəvvür edin ki, bəzən ana körpəsinə qarşı "üsyan" edir. Uşaq çox ağlayanda, şıltaqlıq, ya tərslik edəndə ana bezir, qışqırırsa, dayə sakit dayanacaq? Hardan bilək ki, dayə uşağı vurmayacaq, uşaq yeməkdən imtina edirsə, onu ac qarına yatızdırmayacaq, körpə islanmış "pampers"lə saatlarla qalmayacaq?! Neçə dəfə izləmişik qonşu ölkələrdə dayənin körpə ilə qəddar davranışını. Bəzən mənzillərdə müşahidə kameralarının olduğunu bilə-bilə körpə baxıcıları, dayələr yenə hisslərinə hakimlik edə bilmirlər. İndi təsəvvür edin ki, nəzarətsiz mənzillərdə uşaqla necə rəftar edirlər. Şəxsən mən uşağımı yad insana etibar etməmişəm, etmərəm də. Mən qəbul edirəm ki, bəzən ana işləməyə məcbur olur, bəziləri hətta analıq məzuniyyətini yarımçıq kəsib işə çıxırlar. Sosial vəziyyətləri onları buna məcbur edir. Gərək məsələlərə kompleks yanaşaq. Dövlət analıq məzuniyyətinin müddətini artırmalıdır və bu müddətdə anaya ödənilən məzuniyyət pulunun miqdarı da həm ananın, həm də körpənin ehtiyaclarını ödəyəcək səviyyədə olmalıdır. O zaman biz anaları qınaya bilərik ki, hökumət bu uşağa baxmaq, qulluq etmək üçün sənə yetərincə ödəniş edir, evdə otur, uşağına bax. Amma belə deyil axı. Övladı dünyaya gəlmiş qadın ehtiyac üzündən körpəni yad insanlara tapşırıb işə çıxmalı olur. Lakin sirr deyil ki, heç bir məcburiyyət, zərurət olmadan uşağı yad əllərə etibar edib karyera, sərbəst həyat ardınca gedən analarımız da var. Elə qayınanalar var, gəlinə deyir, səndən nə ana olacaq, get işinlə məşğul ol, uşağı dayə böyüdəcək. Çox təəssüf ki, bizdə əsrlərlə oturuşmuş ailə modeli artıq dağılmaq üzrədir. Ailələr indi iki, üç, nadir hallarda 4 nəfərdən ibarətdir. Ata-ana, bir körpə. Uzaqbaşı, iki uşaq. Ailələrdə nənəyə, babaya artıq yer verilmir. Uşağı dayəyə etibar edirlər, nənəyə-babaya yox.



"Kimsə övladı üçün dayə axtarışına çıxdıqda, müraciət edənlərdən lisenziyasının olub-olmadığını soruşacaq"

**L.Mehralı məcburiyyət qarşısında dayə seçilirsə, bu zaman bir çox amillərə diqqət edilməli olduğunu dedi:**

- Əgər valideyn uşağı dayəyə tapşırmaq məcburiyyətindədirsə, əlbəttə, onun savadlı, güvənli birisi olduğuna dair konkret sənəd təqdim etməsi yaxşıdır. Sözügedən Agentlik belə bir imkan yaradırsa, bunu ancaq alqışlamaq olar. Hazırda işədüzəltmə firmaları da var. Dayələrlə bağlı zəmanət məktubu təqdim edirlər. Agentlik isə dayə peşəsinə yiyələnmək istəyənləri imtahanlara cəlb edəcək, sertifikat verəcək. Məncə, bu, çox yaxşı haldır. Həm gənc mütəxəssislər yetişəcək, sertifikat əldə edənlərin özünə inamı artacaq, həm də uşaqlar daha etibarlı əllərdə olacaqlar.

**Sözügedən qərarı müsbət dəyərləndirən təhsil eksperti Kamran Əsədov isə "Şərq"ə açıqlamasında deyib ki, tarixən dayəlik daha çox yüksək təbəqədən olan, vəzifəli şəxslərin uşaqlarına baxan elmi, savadı ilə seçilən bir insan olub. Azərbaycanda isə ayrı-ayrı adamlar qeyri-rəsmi şəkildə öz aralarında razılaşma əsasında övladlarına dayələr tuturlar:** "Onların əksəriyyəti qeyri-peşəkar insanlardır. Bu isə uşağın sağlamlığı, böyüməsi, eləcə də tərbiyəsi üçün çox zərərli və təhlükəli bir addımdır. Bəzən şahidi oluruq ki, dayə tərəfindən uşağa psixoloji və fiziki travmalar yetirilir. Hətta uşağın döyülərək öldürülməsi, oğurlanması və digər cinayət hadisələri də törədilir. Birinci növbədə peşə hazırlıq kurslarında dayəlik xidmətinin öyrədilməsi təşkil edilməlidir. Dayənin özü ən azından uşaq böyüdüb boya-başa çatdırmış biri olmalıdır. Bu təcrübəni keçmədiyi halda dayənin kiminsə uşağına normal şəkildə qulluq etməsi, onun tərbiyəsi ilə məşğul olması şübhəlidir".

Dayəliyin Azərbaycanda son 10-15 ildə yaranmış, ənənəsi olmayan yeni sahə olduğunu vurğulayan təhsil ekspertinin sözlərinə görə, ölkəmizdə təxminən, 30-40 mindən çox belə işçi var: "Keçmişdə ancaq zadəgan övladları dayələrə - xüsusi mürəbbiyələrə həvalə olunarmış. Bu adət indi də Qərb ölkələrində qorunub saxlanır. Dünya təcrübəsində bu peşəyə yiyələnmək istəyənlər üçün özəl kurslar fəaliyyət göstərir. Xarici təcrübəyə görə, dayə xidməti göstərmək istəyənlərə hətta hüquq, pediatriya və psixologiyadan dərslər keçirilməlidir. Dayə ən azından, pediatriya barədə məlumatlı olmalı, uşaq təhlükə ilə üzləşdikdə ona ilkin yardım göstərməyi bacarmalıdır. Bizdə bəzi MMC-lər yaradıb, kurslar təşkil etməklə dayə hazırlığına səy göstərdilər. Əlbəttə, yaxşı olardı ki, burada bir metodologiya olsun və təhsil onun əsasında aparılsın. Bizdə isə bu barədə vahid metodologiya hazırlanmadı. Hərə müxtəlif üsullarla-biri xarici təcrübəyə, digəri özünün hazırladığı modullara əsasən dayələrə ibtidai verdişlər verir".

*K.Əsədovun sözlərinə görə, ən böyük problemlərimizdən biri də peşə təhsilinin bərbad vəziyyətdə olmasıdır. Agentlik yaratsalar da, bu, heç nəyi dəyişmədi. Vəziyyət olduğu kimi qaldı:*

"Peşə təhsili düzəlsə, orada dayəlik üzrə də təhsil almaq olar. İndi İşsizlikdən Sığorta Fondu yaradılıb. Onun funksiyalarından biri də qısamüddətli kurslar təşkil etməklə insanların peşə yönümünü dəyişməkdir. Bu mexanizmi əvvəldən əyri yaratdılar. Dayələrə mütləq yaş məhdudiyyəti qoyulmalıdır. Nə çox cavan, nə də çox yaşlı insanların dayəlik etməsi düzgündür. Cavan xanımların təcrübələri az ola bilər. Yaşlı xanımlar isə pul xatirinə bu işlə məşğul olur, amma başqasının uşağını bədbəxt edirlər. Çünki həmin adamların səhhəti ilə bağlı və ya psixoloji problemləri çox olur. Məncə, dayəni tanışlıqla götürmək olmaz. Mütləq elə qurum olmalıdır ki, dayə oradan sertifikat almalıdır. Həm sağlamlıq, həm də psixi durumlarına görə sənədləri olmalıdır. Yaxşı olardı ki, dayələri hazırlayan qurum olsun. Orada pedaqoji təhsil də verilsin. Ali təhsilli gəlincə isə inanmıram ki, ali təhsilli müəllim dayə işləsin. Sırf ali pedaqoji təhsilli olması vacib deyil".

**Şəymən, Məlahət**

# Ermənistan toqquşmalar meydanına çevrilir

## Türkiyə-Rusiya monitorinq mərkəzi Ermənistanla sərhədə yerləşdirilməlidir

**”Ağdamdakı Türkiyə-Rusiya monitorinq mərkəzi Ermənistanla sərhədə yerləşdirilməlidir”. Bunu Milli Məclisin iclasında Parlamentin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc deyib. Deputat bildirib ki, dövlətimiz haqlı olaraq, Qərbin silahsız taborunun qanuniliyini tanımır və onlarla əməkdaşlığa getməyəcəyini bəyan edir:**



*Qarabağa çoxmillətli missiya gətirmək Ukrayna müharibəsini Qafqaza keçirmək deməkdir*

”Sual olunur, o missiya üzvlərini BMT-mi seçib, yaxud Avropa Birliyi nə vaxtdan təhlükəsizlik və hərbi təşkilat olub? Bölgəyə gətirilənlərin NATO-nun məxfi emissarları olmaduğu, qərarı isə Avroatlantik Alyansın hərbi-siyasi generallarının verdiyi şübhəsizdir. Ermənistanı Rusiya, İran, Türkiyə və Azərbaycanın əlindən almaq, bölgəyə beynəlmiləl muzdluları yerləşdirmək sabitliyə xidmət etməyəcək. 2020-ci ilin Vətən müharibəsi qəfil başlandığından Qərb dövlətləri müdaxilə imkanları olmadığı üçün regiondan çıxarıldıqlarını düşünürlər. Ona görə də Minsk qrupunun ləğv edildiyini görən ABŞ, Fransa danışıqlara və Qafqazlara qayıtmaq üçün bütün cəbhə boyu diplomatik-siyasi hücuma keçiblər. Məqsəd Azərbaycan təhlükəsi adı altında öz ordularını və silahlarını İrəvanda yerləşdirməkdir”.

Zahid Oruc bildirib ki, bu qərar regional təhlükəsizliyə və Ermənistanla sülh danışıqlarına zərbə vuracaq: ”Digər tərəfdən Rusiya Avropa Birliyinin addımını ona qarşı açılan ikinci cəbhə sayır və Ermənistanın avantürasını pisləyir. Tarixdə ilk dəfə, Vətən müharibəsinin nəticəsində İrəvan və Moskva qarşı duran tərəflərə ayrılıb. Beləliklə, Rusiyanın Gümrüdəki bazası, o cümlədən Xankəndidə missiyası ilə Avropa Birliyinin patrul dəstələrinin gələcəkdə toqquşması qaçılmazdır, o zaman NATO qüvvələrini konfliktə cəlb etməyə fürsət yaranacaq. Göründüyü kimi, Ermənistan ərazisi hərbi toqquşmalar meydanına çevrilir və İrəvanı Hələbin, Mosulun taleyi gözləyir. Eynilə, Türkiyə də Qərbin hərbi qüvvələrinin mülki libasda sərhədlərdə yerləşməsini istəmir və Azərbaycanla birliyinə zərbə kimi qiymətləndirir. Tarixdən məlumdur ki, Şarl de Qolldan sonra Fransa əsgərlərinin ayağı hara dəyibsə, orada kütləvi qırğınlar və dağıntılar törənib. İndi sərhəddə yerləşdirilən qüvvələri müxtəlif yollarla - Xankəndidə ermənilərin təhlükəsizliyi və hüquqlarının qorunmasına cəlb etməyə çalışacaqlar. Nəticədə, Qarabağa çoxmillətli missiya gətirmək Ukrayna müharibəsini Qafqazlara keçirmək deməkdir”.

Parlament üzvü qeyd edib ki, NATO-nun Əfqanıstanda və İraqda cinayətlər törətdiyi üçün qovulan, Fransanın Afrikadan nifrətlə çıxarılan qüvvələrini sərhəd monitorinqinə cəlb edirlər: ”Ermənistana tərəf atılan hər gülləni aktlaşdırıb saxta beynəlxalq mövqe formalaşdıraraq, ölkəmiz əleyhinə BMT qətnamələrini qəbul edəcəklər. Halbuki torpaqlarımız işğal altında olanda 30 il ərzində Monitorinq Missiyası iki dəfə işğal bölgəsinə gəldi. Lakin heç birində yeddi rayonun və 100 minlərlə evin yer üzündən silinməsini görmədi. İndi sərhəd boyu düzüləcək hərbi missionerlər orduzumun qarşısına canlı sipər çəkəcəklərini düşünürlər. Belə mürəkkəb vəziyyətdə alternativ tədbirlərdən biri Ağdamda yerləşən Türkiyə-Rusiya monitorinq mərkəzinin Ermənistanla sərhəddə yerini dəyişməsidir. Çünki İrəvanda sülhü təmin etməyə qadir olan tək dövlət Azərbaycandır”.

**İsmayıl**

# Artıq ortaq düşmənlər var

## Azərbaycan və İsrail generalları regional məsələlərdəki riskləri dəyərləndiriblər



**Fevralın 1-də Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənovla İsrailin müdafiə naziri Yoav Qallantın telefon danışığı olub. Bu barədə Müdafiə Nazirliyindən məlumat verilib.**

Telefon danışığı israilli nazirin təşəbbüsü ilə baş tutub.

Azərbaycan-İsrail əlaqələrinin dostluq və qarşılıqlı etimada əsaslandığını vurğulayan Y.Qallant ölkələrimiz arasında mövcud münasibətlərdən məmnunluğunu ifadə edib.

General-polkovnik Z.Həsənov Y.Qallantı İsrail Dövlətinin müdafiə naziri təyin olunması münasibətilə təbrik edərək ölkələrimiz arasında hərbi sahədə əməkdaşlığın genişlənəcəyinə əminliyini bildirib.

Danışıq zamanı tərəflər regional təhlükəsizlik məsələlərini, eləcə də ölkələrimiz arasında hərbi-texniki əməkdaşlığın perspektivlərini müzakirə ediblər.

Həmçinin fevral ayının 1-də Azərbaycanın DSX rəisi general-polkovnik Elçin Quliyev və İsrailin müdafiə naziri Yoav Qallant arasında telefon danışığı baş tutub.

Telefon əlaqəsi zamanı general-polkovnik Elçin Quliyev yeni vəzifəyə təyin olunması münasibətilə Y.Qallantı təbrik edib.

Tərəflər mövcud əlaqələrin yüksək səviyyədə olmasını vurğulayaraq qarşılıqlı maraq kəsb edən istiqamətlər üzrə əməkdaşlığın perspektivlərini müzakirə edib, ölkələrimiz arasında təhlükəsizlik və sərhəd mühafizəsi sahəsində əlaqələrin inkişaf etdirilməsinə dair fikir mübadiləsi aparıblar.

*"Azərbaycan hansısa ciddi təhlükə ilə üz-üzə qalmayacaq. Kimsə buna cəhd edərsə, anında adekvat qarşılıq veriləcək"*

**Telefon danışığının gizlinlərini ”Şərq”ə dəyərləndirən hərbi-siyasi ekspert Həşim Səhrablı söyləyib ki, son hadisələr fonunda DSX və Müdafiə Nazirliyinin İsrail MN ilə əlaqədə olması heç də təsadüfi deyil:**

”Bu, məqsədyönlü şəkildə atılan addımlardan sayılmalıdır. Hadisələr isə İsrail və Azərbaycanı ortaq düşmən məfhumunda birləşdirir. İndiyə qədər hər iki ölkə sadəcə tərəfdaş idilərsə, bu gündən etibarən artıq ortaq düşmənləri var. İranı özümüzə düşmən hesab etmək üçün xeyli səbəblərimiz var. Səfirliyimizə olan hücum bunu bir daha sübut etdi. İsrail və İran isə yarandığı ilk vaxtlardan düşmən münasibətdədir”.

Ekspert qeyd edib ki, görüş bizə tərəflərin regional məsələlərdəki riskləri dəyərləndirməyə çalışdıqlarını deməyə imkan verir: ”Yəni hansısa ciddi risk olarsa, necə koordinasiya olunacağı müzakirə oluna bilər. Digər tərəfdən ”Azərbaycanı hansısa böyük təhlükə gözləyir” yanaşması düzgün deyil. Çünki Azərbaycan həm ordu, həm də arsenalındakı texnikalar baxımından güclü ölkədir. Həmçinin Bakının etibarlı beynəlxalq tərəfdaşları mövcuddur. Azərbaycan Şuşa bəyannaməsinə əsasən, Türkiyə kimi bir ölkənin hərbi dəstəyinə arxalana bilər. Bunlar bizə deməyə imkan verir ki, Azərbaycan hansısa ciddi təhlükə ilə üz-üzə qalmayacaq. Kimsə buna cəhd edərsə, anında adekvat qarşılıq veriləcək. Bu qarşılıq isə təkcə Bakıdan yox, həm də Ankara və Təl-Əvivdən göstəriləcək”.

**Nihat Müzəffər**

# İrəvana müəyyən basqılar gözləniləndir

## Lavrovun Bayramovla təmaslarında Ermənistana mesajlar verildi



**Azərbaycan xarici işlər naziri Ceyhun Bayramovla rusiyalı həmkarı Sergey Lavrov arasında telefon danışığı baş tutub. Nazirlər bölgədə və Laçın yolu ətrafında cari vəziyyət, o cümlədən üçtərəfli bəyanatların icrası ilə bağlı məsələləri müzakirə ediblər.**

Ceyhun Bayramov Azərbaycan tərəfinin Laçın yolunda öhdəliklərə uyğun olaraq vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hərəkətinə təhlükəsizlik zəmanəti verdiyini, yolun açıq olduğunu diqqətə çatdırıb. Bildirilib ki, yoldan humanitar məqsədlə istifadə edilməsinə bütün şəraitin yaradılmasına baxmayaraq, Ermənistan tərəfi uydurma təbliğatını davam etdirir. Telefon danışığı zamanı, həmçinin iki dövlət arasında əməkdaşlıq gündəliyinin aktual məsələləri və qarşılıqlı maraq doğuran digər sahələr ətrafında fikir mübadiləsi aparılıb.

**Politoloq Əli Oruclu ”Şərq”ə bildirib ki, 10 noyabr 2020-ci ildə imzalanmış bəyanatın bütün bəndlərinə Azərbaycan əməl edib. Eyni zamanda sonrakı müxtəlif formatlı görüşlərdə imzalanan sənədlərdəki öhdəliklər də rəsmi Bakı tərəfindən icra olunmaqdadır.** Lakin Ermənistan üçtərəfli bəyanatın iki vacib bəndini, eləcə də sonrakı görüşlərdə əldə olunan razılaşmanı yerinə yetirməkdən müxtəlif bəhanələrlə boyun qaçırıb: ”Xüsusən, Qarabağ iqtisadi zonasında Rusiya sülhməramlı kontingentinin nəzarət zonasında olan erməni hərbi birləşmələrinin çıxarılması, Naxçıvanı Azərbaycanın qərb rayonları ilə birləşdirən kommunikasiya dəhlizinin açılması düyünə çevrilib. Bunlar azmış kimi, üstəlik, Azərbaycan ərazisində ekoloji terroru və təbii resursların talanmasını davam etdirib. Belə olan halda təbii ki, Azərbaycan dövləti və ictimaiyyəti müvafiq tədbirlərə əl atmaq məcburiyyətində qalır.

*“Moskva onunla ciddi rəqabətə girmiş Qərbin müşahidə missiyasını sərhədə gətirməsinə seyrçi qala bilməz”*

Laçın yolunda ekofəalların etiraz aksiyası cəmiyyətin içindən gələn qəzəb və narazılığın təzahürüdür. Ermənilərin beynəlxalq şüvənliyinə baxmayaraq, çox humanist yanaşma sərgilənir. Baxmayaraq ki, yolu Rusiya sülhməramlıları bağlayıb. Rusiya ermənilərin məqsədlərini yaxşı anladığından onların təxribatçı gedişlərinə məhəl qoymur. Ermənilərin bu cür ”humanitar böhran” təbliğatı Rusiyaya sülhməramlıların imicinə və üzərinə götürdüyü missiyasına zərər vurur. Ona görə də Lavrovun Bayramovla təmaslarında imzalanan bəyanatın və digər sənədlərin yerinə yetirilməsi məsələsinin vurğulanması həm də Ermənistana mesajdır”.

**Ə.Oruclunin fikrincə, Moskva onunla ciddi rəqabətə girmiş Qərbin müşahidə missiyasını sərhədə gətirməsinə seyrçi qala bilməz:** ”Rusiyanın hər nə qədər başı Ukrayna savaşına qarışsa da, Cənubi Qafqaz iddiasından əl çəkəcəyini iddia etmək absurddur. Əsasən, özünün yaratdığı ”Ermənistan” adlı dövləti də Qərbə verəsi deyil. Moskvanın həm öz nüfuzunu qorumaq, həm maraqlarını təmin etmək, həm də Azərbaycanı narazı salmamaq üçün İrəvana müəyyən basqılar edəcəyi gözləniləndir. Əvvəl-axır Ermənistan üzərinə götürdüyü öhdəliyi yerinə yetirmək məcburiyyətində qalacaq. Reallığı nə qədər tez anlasalar, bir o qədər onlar üçün faydalı olar”.

**İsmayıl Qocayev**

# UNESCO və BMT-nin Azərbaycanı dəstəkləməsi təbiidir

## Türkiyəli politoloq: “Hər bir ölkə diplomatik korpusların qorunmasına görə öhdəlik daşıyır”



**UNESCO rəhbərliyi Azərbaycanın Tehrandakı səfirliyinə edilmiş silahlı hücumu pisləyib.**

Bu barədə UNESCO rəhbərliyinin Azərbaycanın təşkilat yanındakı Daimi nümayəndəliyinə ünvanladığı rəsmi məktubda bildirilib.

UNESCO-nun Baş direktorunun adından göndərilən məktubda Azərbaycan hökumətinə və xalqına rəğbət ifadə olunaraq başsağlığı ifadə edilib. Həlak olan şəxsin ailəsinə dərin hüznlə başsağlığı verilib və xəsarət alanların tezliklə sağalması dilənilib.

BMT-nin Azərbaycanın və onun xalqının yanında olduğu bildirilərək, indiki çətin vəziyyətdə diplomatik missiyaya qarşı belə aktların qadağan olduğu vurğulanıb. Məktubda, həmçinin qeyd edilib ki, Azərbaycan UNESCO Katibliyinin dəstəyinə tam əmin ola bilər. Mövzunu ”Şərq”ə dəyərləndirən türkiyəli politoloq Abdullah Ağar bildirib ki, UNESCO və BMT-nin Azərbaycanı dəstəkləməsi təbiidir: ”Çünki Vyana konvensiyasında yazılıb ki, ərazisində yerləşən diplomatik korpusların qorunmasına görə hər bir ölkə öhdəlik daşıyır. Yəni öhdəlik İranda olduğu üçün BMT və UNESCO kəşfiyyat cəhətdən hər zaman özünü önə çıxardan İranda belə bir hadisənin olmasını qınayır. Bu hadisə həm də rəsmi Tehran üçün böyük etibarsızlıq problemi yaratdı. Eyni zamanda beynəlxalq öhdəliklərin yerinə yetirilməməsi məsələsi də var. Ona görə də BMT və UNESCO-nun rəsmi Bakını dəstəkləməsi və İrana güvənməməsi təkcə Azərbaycanla bağlı deyil. Təhlükəsizlik probleminin olması həm də İranda olan beynəlxalq təşkilatlar və BMT üçün təşvişə səbəb olur. Belə olduqda isə UNESCO və BMT təbii olaraq sərt mövqe sərgiləyir”.

**Nihat Müzəffər**

# İran özünü çıxılmaz vəziyyətə salıb

## Rauf Arifoğlu: ”Heç bir sosial dayağı olmayan bir rejim sağa-sola hücum edir”



**”İran adlanan bir ölkənin həm daxili, həm də xarici amillər baxımından çox ciddi problemləri var”.**

**Bunu ”Şərq”ə ”Yeni Müsavat” media qrupunun rəhbəri, tanınmış jurnalist Rauf Arifoğlu Tehranda gənclərin yenidən etiraza qalxması ilə bağlı danışarkən deyib. O bildirib ki, İran Azərbaycanla münasibətləri müharibə həddinə qədər gərginləşdirib:** ”Artıq Azərbaycan tərəfinin İrandakı diplomatik fəaliyyəti dayandırılıb. Çünki səfirliyimizə hücum olub. Bizə qarşı terror hərəkəti həyata keçirilib. Şəhid verdik. Yaralılarımız var. Belə bir vəziyyətdə İranın daxilində də etirazlar səngimir. Tehran, İsfahan, ərəblərin, kürdlərin yaşadığı bölgələrdə üsyan qaynayır.

Cənub qonşumuz öz xalqı ilə hazırda savaş meydanındadır. İran İslam Respublikası adlanan ölkə Azərbaycana qarşı münasibətini çox sərtləşdirib. Eyni zamanda da analoji münasibət cənub qonşuluğumuzda yaşayan azərbaycanlılara yönəlikdir.

Rəsmi Tehranın hazırkı daxili problemlərindən biri də zəlzələ nəticəsində minlərlə insanın evsiz-eşiksiz qalması və zərər çəkməsidir. Onların də çoxu Xoy şəhərində yaşayan azərbaycanlılardır”.

R.Arifoğlunun qənaətincə, heç bir sosial dayağı olmayan bir rejim sağa-sola hücum edir: ”Həmçinin çox güclü, qüdrətli dünya güclərinə qarşı direniş göstərməyə çalışır. Həm Amerika, həm də İsrailin xəritədən silinəcəyi ilə bağlı hakim doktrini təkrar edir. Bu doktrin əsasında mitinqlər təşkil olunur, siyasət həyata keçirilir, terror planı qurulur. Qüds, Suriya, İraq, Livanda olan İran təmayüllü terror hadisələri bu ölkənin qara siyahıya salınmasına və terrora dəstək verən dövlət kimi təsbit edilməsinə səbəb olub”.

**Baş yazar vurğulayıb ki, İranda 40 milyon soydaşımız yaşayır və yerdə qalanların da çoxu müsəlman dininə görə qardaşlarımız sayılır:** ”Ona görə də əlbəttə, Azərbaycan qonşuluğunda belə bir fəlakətin olmağını istəməz. Amma rəsmi Tehran öz siyasəti ilə özünü çıxılmaz vəziyyətə salıb. İran özünü ”viran” eləmək ərəfəsindədir. Daxildə ictimai dayaqlar yoxdur. Qonşularla münasibətləri çox pisdir. İndiki zamanda İranın dünyada bir dənə də olsun, müsəlman dostu yoxdur. Hamısı qeyri-müsəlman ölkələrdir. Onların sırasında birinci yerdə Ermənistan dayanır. Rəsmi İrəvan Azərbaycanla düşmən olmasına baxmayaraq, İranla qardaşdır. İkinci sırada isə Hindistandır. Kəşmir problemində də İran Pakistanın yox, Hindistanın mövqeyini müdafiə edir. Eynilə Qarabağ məsələsində hər zaman Ermənistanın yanında olduğu kimi, Kəşmir münaqişəsində də bunu görə bilirik. Bütün sadalananlar İranın iç üzü, mahiyyəti və anti-islam xislətidir. Belə bir vəziyyətdə əminliklə demək olar ki, bu cür yaramaz, dünyaya, qonşularına problem olan bir rejimin sonu yaxınlaşır. Cəmiyyət mollakratiyanı yaxın zamanlarda ”süpürüb” iqtidardan salmasa, İranın taleyi heç də yaxşı olmayacaq”.

*Qeyd edək ki, ötən gecə İranda gənclər yenidən etiraza qalxıblar.*

*Bu barədə ”Azad İran” ”Telegram” kanalı məlumat yayıb.*

*Bildirilib ki, Tehranda molla rejimindən narazı gənclər antihökumət şüarları səsləndiriblər.*

**Sücayət Mehti**

# Masallıda məktəb direktoru həbs edilib

**Masallıda məktəb direktoru həbs edilib.**



APA-nın Cənub bürosu xəbər verir ki, Masallı rayon Musaküçə kənd F.Xancanov adına tam orta məktəbinin direktoru Cahangirov İlqar Abbas oğlu həbs edilib.

Lənkəran-Astara Regional Təhsil İdarəsindən APA-nın Cənub bürosuna bildiriblər ki, İlqar Cahangirov 31 yanvar 2023-cü il tarixdə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 178.2.2, 178.2.3, 178.2.4, 179.2.2,179.2.3,179.2.4, 308.1 və 313-cü maddələri (ötən il Maliyyə Nazirliyinin həmin məktəbdə apardığı yoxlamanın nəticəsi və vətəndaşlardan işə götürmək adı ilə aldadaraq külli miqdarda pul alması) ilə təqsirləndirilən şəxs qismində cinayət məsuliyyətinə cəlb edilib. Onun barəsində Masallı rayon prokurorunun təqdimatı əsasında Masallı rayon Məhkəməsi tərəfindən həbs qətimkan tədbiri seçilib.

*Qeyd edək ki, İlqar Cahangirov 2016-cı ildən Musaküçə kənd F.Xancanov adına tam orta məktəbinin direktoru vəzifəsində çalışıb.*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi;**



# Gələcəyə hesablanmış uğur

## Gənclər siyasəti ölkədə həyata keçirilən inkişaf siyasətinin mühüm tərkib hissəsidir

**2 fevral - Azərbaycan Gəncləri Günüdür. Gənclər Ulu Öndər Heydər Əliyevin onlara ən böyük hədiyyəsi olan bu günün təsis edilməsinin ildönümünü qalib ölkənin məğrur və qürurlu vətəndaşları kimi qeyd edirlər. Gənclərə həmişə böyük diqqət və qayğı ilə yanaşan, bu siyasəti müasir müstəqil Azərbaycan dövlətinin fəaliyyətinin ən mühüm istiqamətlərindən biri kimi dəyərləndirən Ümummilli Lider tərəfindən əsası qoyulmuş dövlət gənclər siyasəti ölkə gəncliyinin inkişafında dərin izlər buraxıb.**

Ulu Öndərin 1997-ci il fevralın 2-də imzaladığı Fərmana əsasən, hər il fevralın 2-si Azərbaycan Gəncləri Günü elan edilib. Həmin vaxtdan etibarən bu gün MDB məkanında və Şərqi Avropa ölkələri arasında ilk dəfə olaraq Azərbaycanda təntənəli şəkildə qeyd edilməyə başlanıb. Bir çox sahədə olduğu kimi, bu sahədə də Azərbaycan bir çox ölkələri qabaqlayıb. Belə ki, Azərbaycanda Gənclər Günü təsis edildikdən xeyli sonra gənclərin işləri üzrə nazirlərin ümumdünya konfransının tövsiyəsi əsasında BMT Baş Məclisinin 1999-cu il 17 dekabr tarixli qətnaməsi ilə 12 avqust - Beynəlxalq Gənclər Günü elan edilib. Ümummilli Lider Heydər Əliyev gənclər sahəsində dövlət siyasətinin uğurla həyata keçirilməsi məqsədilə bütün dünyaya nümunə olacaq daha bir addım atıb. Bu sahənin zəruri qanunvericilik bazasının formalaşdırılmasını təmin edib. Gənclərin sosial, iqtisadi və s. problemlərinin həllinə yönələn, onların öz qabiliyyətlərini inkişaf etdirmələrinə kömək edən fərman və sərəncamlar, Dövlət proqramları bu qəbildəndir. Qanunlar, fərman, sərəncam və Dövlət proqramları gənc nəslin mütəşəkkil qüvvə kimi formalaşmasına, onların mənəvi-ideoloji cəhətdən tam yetkinləşməsinə, sosial problemlərinin həllinə, faydalı məşğulluğunun təmin olunmasına son dərəcə müsbət təsir göstərib. Ulu Öndərin gəncliyə və gənclərə etimadı bu gün artıq öz təsdiqini tapmaqdadır. Bu gün ölkəmizdə gənclər siyasəti mahiyyət və keyfiyyətcə yeni mərhələsini yaşayır. Prezident İlham Əliyev Ulu Öndərin gənclər siyasətinə sadiqliyini öz qərarları ilə təsdiq edir. Gənclərin mənəvi inkişafı, vətənpərvərlik tərbiyəsi, xarici ölkələrdə təhsili, sosial müdafiəyə ehtiyacı olanların problemlərinin həlli istiqamətində görülən işlər, gənclər təşkilatlarının formalaşması və inkişafı üçün yaradılan şərait və imkan bu sahəyə böyük diqqətin nəticəsidir. Dövlət başçısının 2007-ci il 16 aprel tarixli Sərəncamı ilə təsdiq edilmiş "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsil üzrə Dövlət Proqramı" bütün təbəqədən olan gənclərin xaricdə təhsilinə geniş imkanlar yaradıb. Bu proqram çərçivəsində minlərlə gənc dünyanın ən nüfuzlu təhsil ocaqlarında oxuyur. Azərbaycanın gənclər siyasətində idmanın inkişaf etdirilməsi və onun kütləviliyinin artırılmasına da xüsusi diqqət yetirilir. Prezident İlham Əliyevin mətin iradəsi və böyük səyləri nəticəsində Azərbaycan dünyanın qabaqcıl idman ölkələrindən birinə çevrilib. Bu gün respublikamızda 43 Olimpiya İdman Kompleksinin fəaliyyət göstərməsi, ölkəmizin nüfuzlu beynəlxalq idman yarışlarına ev sahibliyi etməsi, idmançılarımızın Olimpiya və dünya çempionatlarında uğurlu çıxışları buna əyani sübutdur. Beynəlxalq yarışlarda qələbə qazanan gənc idmançıların layiqincə qiymətləndirilməsi də onların yeni uğurlarında mühüm rol oynayır.

**Millət vəkili, Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin üzvü Cavid Osmanov deyib ki, Azərbaycanı gənclər ölkəsi, gəncləri isə Azərbaycanın gələcəyi adlandıran Ulu Öndər böyüməkdə olan gənc nəslə qayğını hər zaman önə çəkirdi. Deputatın sözlərinə görə, hüquqi və dünyəvi dövlət quruculuğu prosesində, çoxşaxəli islahatların reallaşdırıldığı bir vaxtda gənclik enerjisinə ehtiyac duyulduğunu düzgün qiymətləndirən Ulu Öndər müxtəlif illərdə gənclər siyasətinin ayrı-ayrı istiqamətləri üzrə müvafiq sənədlər imzalayıb:** "Ayrı-ayrı dövlət orqanlarının gənclərlə iş sahəsindəki fəaliyyətini əlaqələndirmək məqsədilə Ulu Öndər Heydər Əliyevin 1994-cü il 26 iyul tarixli Fərmanı ilə Gənclər və İdman Nazirliyi yaradıldı. Gənclərlə iş sahəsində vahid dövlət siyasətinin reallaşdırılması təmin edildi. Dövlətin dəstəyi ilə gənclər siyasətinin institutlaşdırılması və gənclər hərəkatının təşkilatlanması davamlı xarakter almışdı. Ümummilli Liderin gənclər forumunun təşkili ilə bağlı 1995-ci ildə irəli sürdüyü təşəbbüsdən sonra 1996-cı ildən başlayaraq Azərbaycan gənclərinin forumları keçirildi. 1999-cu il iyulun 29-da imzalanan "Dövlət gənclər siyasəti haqqında" Fərman müstəqil dövlətimizdə gənclərin hərtərəfli inkişafı üçün daha əlverişli şərait, cəmiyyətin həyatında onların fəal iştirakının təmin edilməsi üçün siyasi, sosial-iqtisadi və hüquqi baza yaratdı". Parlament üzvü qeyd edib ki, Ulu Öndərin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyev Azərbaycan gəncliyinin inkişafında müstəsna xidmətlərə malikdir: "Mənim gənclərə xüsusi münasibətim var, mənim ürəyim sizinlədir. Siz bütün işlərdə mənə arxalana bilərsiniz. Mən də sizə arxalanıram"- deyən dövlət başçısı tərəfindən ötən müddət ərzində bu istiqamətdə çoxlu sayda dövlət proqramları və inkişaf strategiyaları qəbul edilib: "Prezident İlham Əliyevin 2007-ci ilin "Gənclər ili" elan edilməsi ilə bağlı Sərəncamı gənclərin ölkənin ictimai-siyasi və mədəni həyatında fəallığının daha da yüksəlməsinə səbəb oldu. Ölkə başçısı tərəfindən imzalanmış sərəncamlar əsasında reallaşan Dövlət Proqramları nəticəsində 5000-dən artıq Azərbaycan gənci dünyanın nüfuzlu ali məktəblərində təhsil almağa müvəffəq oldu. Bütün bunlar isə Azərbaycanın gələcəyinə xidmət edən mühüm sərmayə hesab edilməlidir. Gənclərin hərtərəfli inkişafını, cəmiyyətin həyatında fəal iştirakını bir qədər də stimullaşdırmaq məqsədilə Prezident İlham Əliyev tərəfindən 2011-ci il 19 dekabr tarixində Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun yaradılması barədə Sərəncam imzalanaraq Fond qarşısında gənclər siyasəti ilə bağlı elm, təhsil, mədəniyyət və digər sosial sahələrə yönəlmiş ictimai və sosial əhəmiyyətli, o cümlədən beynəlxalq səviyyədə həyata keçirilən layihə və proqramları qrant şəklində maliyyələşdirmək məqsədi qoyuldu. 2018-ci ildə Fond yenidən təşkil edilərək Azərbaycan Respublikasının Gənclər Fondu adlandırıldı. Ölkə başçısının gənclərə dəstək yönündə verdiyi mühüm və əlamətdar qərarlardan biri də 2013-cü ildə ölkədə ilk dəfə "Gənclər üçün Prezident Mükafatı"nın təsis edilməsi oldu. Gənclər siyasəti sahəsində atılan addımlar və qəbul olunan qərarlar cənab Prezident İlham Əliyevin gələcəyə hesablanmış uğurlu siyasətinin təcəssümüdür. Müasir, müstəqil Azərbaycanın intensiv inkişafını təmin edən fundamental faktorlardan birini də cəmiyyətin ən dinamik təbəqəsi qismində çıxış edən gənclərin potensialından səmərəli istifadə təşkil edir. Gənclər siyasəti ölkədə həyata keçirilən inkişaf siyasətinin mühüm tərkib hissəsidir. Azərbaycan gəncliyi ictimai həyatın bütün sahələrində aktiv fəaliyyəti ilə seçilir və siyasi, iqtisadi, humanitar, sosial tədbirlərin həyata keçirilməsində mühüm rol oynayır. Gənclərin fəaliyyəti üçün dövlətin yaratdığı geniş imkanlar nəticəsində bu təbəqə cəmiyyətin aparıcı qüvvəsinə çevrilib və gəncliyimiz ölkəmizin gələcəyi uğrunda inamlı addımlar atmaqdadır".

**C.Osmanov vurğulayıb ki, rəşadətli Azərbaycan Ordusunun sıralarındakı Vətən uğrunda mətanətlə vuruşan qəhrəman gənclərimiz öz adlarını xalqımızın ən yeni tarixinə qızıl hərflərlə yazdılar:** "Məhz onların rəşadəti sayəsində əldə olunan bu Şanlı Zəfər ölkəmizin ərazi bütövlüyünü bərpa etdi. Xalqımız otuz illik həsrətdən sonra tarixi torpaqlarımıza qovuşdu. Gənclərimiz Vətən uğrunda döyüşlərlə yanaşı, arxa cəbhədə də yüksək fəallıq göstərib. Ölkəmizlə bağlı həqiqətlərin, işğalçı Ermənistanın əzəli torpaqlarımızda törətdikləri vandallıq aktlarının beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılmasında fəal iştirak ediblər.

**İsmayıl**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub



# Saakaşvili ömrünü həbsdə bitirəcək

## Qərb belə bir kadrın həbsdə çürüməsinə əlini-qolunu sallayıb tamaşa edirsə, böyük yanlışlıq edir

**Gürcüstanın sabiq Prezidenti Mixeil Saakaşvili son bir neçə aydır yatdığı "Vivamedi" xəstəxanasında palatadan reanimasiyaya köçürülüb.**

Onunla yaxın münasibətdə olan Ukrayna Ali Radasının deputatı Yelizaveta Yasko yanvarın 31-də feysbuk sosial şəbəkəsində Saakaşvilinin vəziyyətinin ağır olduğunu yazıb. Sabiq dövlət başçısının vəziyyətinin ağırlaşdığı üçün reanimasiyaya köçürülməsi faktını eks-prezidentin vəkili Şalva Xaçapuridze də təsdiqləyib.

Qeyd edək ki, bu günlərdə Gürcüstanın eks-prezidenti Mixeil Saakaşvili Vahid Milli Hərəkat Partiyasının yeni lideri Levan Xabeişviliyə təbrik məktubu ünvanlayıb. Saakaşvili məktubunda Gürcüstanda siyasətlə məşğul olmayacağını bildirib. "Təbrik edirəm, qardaş! Səni yaxın insan və böyük potensialı olan siyasətçi hesab edirəm. Gürcüstanda siyasi fəaliyyət planlaşdırmıram, lakin səni Ukraynadan və digər yerlərdən dəstəkləyəcəm. Bağrıma basıram", - deyə Saakaşvili bildirib.

Ekspertlərin fikrincə, Mixeil Saakaşvili həbsdə həyatını itirərsə, bu faciənin baiskarı yalnız onu həbsə atan Bidzina İvanişvili və ya bu həbsin sifarişçisi Vladimir Putin olmayacaq, bu günahdan Gürcüstanın 3-cü prezidentinin həbsxanadakı zillətinə seyrçi qalan gürcü cəmiyyətinə və Gürcüstan hökumətinə yetərli təzyiqlər göstərməyən Qərb ölkələrinə də pay düşəcək.

**Saakaşvilinin sıravi biri olmadığını vurğulayan politoloq Tural İrfan "Şərq"ə açıqlamasında deyib ki, Gürcüstanda normal sivil cəmiyyət və hakimiyyətin qurucusu, prezidentliyi dönəmində buraxdığı səhvlərdən və islahatlarının yetərli olub-olmamasından asılı olmayaraq müasir gürcü demokratiyasının simvoludur.**

Saakaşvilinin bu vəziyyətə düşməsinə birbaşa Rusiya səbəbkardır. Onun sözlərinə görə, Saakaşvili Qərbə, ABŞ-yə çox inanırdı və hələ də inanır. O hesablamamışdı bu vəziyyətlə üzləşəcəyini: "Saakaşvilinin hazırkı durumu prezident olduğu dönəmdə Rusiyaya qarşı olan mövqeyidir. Ondan açıq-aşkar intiqam alırlar. Gürcüstandakı hakimiyyət dairələri də bu durumu uzatmaqla həm Saakaşvilini azad etməyə görə Rusiyadan çəkinirlər, həm də Saakaşvili sonunu hesablamadığı kimi öz sonlarını da hesablamayıblar. Hesab edirəm ki, Saakaşvili ömrünü həbsdə tamamlamayacaq, qısa zamanda olmasa da, azadlığa çıxacaq, lakin onun Ukrayna və ya hansısa başqa ölkəyə çıxışına qadağa ola bilər. Çünki onun bu anonsları rəqiblərini səfərbər olmağa vadar edir".

***"Gürcüstan hökuməti Saakaşvilinin indiki halına görə peşman olacaq və özlərini bağışlamayacaqlar"***

**T.İrfanın sözlərinə görə, əgər Saakaşvili həbsdən azad olsa əsla siyasətdən çəkilməyəcək:** "Ola bilsin, indi azad olmaq naminə belə anonslar verir. Həm də səhhətində ciddi problemlər var. Ola bilsin, sağlam çıxa bilməsin, psixoloji problemləri olsun. Yaxud çıxsın, sonra azadlıqda ona sui-qəsd etsinlər. Odur ki, Saakaşvili barədə əsasən onun etibar etdiyi Qərb dairələri addım atmalıdırlar. Beynəlxalq təşkilatlar onun azadlığı ilə bağlı formal bəyanatlar verincə, yaxşı olar ki, Gürcüstan hökumətinə real təsir etsinlər. Güman edirəm ki, hər bir halda Saakaşvili siyasətdən kənara qala biləsi adam deyil və o, dərhal azadlığa çıxmalıdır. Qərb belə bir kadrın həbsdə çürüməsinə əlini-qolunu sallayıb tamaşa edirsə, böyük səhv edir. Çünki demokratik dəyərləri aşıladığı başqa ölkələrdə də Qərbə qarşı inamını itirə bilər. Qərb, ABŞ demokratik liderləri qorumaq əvəzinə onları belə təhlükəli vəziyyətdə tərk etməməlidir.

Saakaşvili kimi adamlar təkcə Gürcüstan və Ukraynata deyil, bütün dünyaya lazımdır. Elə şəxslər dünyaya az gəlir. İndən belə inanmıram ki, Gürcüstan ikinci bir Saakaşvili yetişdirə bilsin. Hesab edirəm ki, Gürcüstan Saakaşvilinin indiki halına görə peşman olacaq və özlərini bağışlamayacaqlar".

**Politoloq Məhəmməd Əsədullazadə isə hesab edir ki, Saakaşviliyə qarşı göstərilən bu işgəncə və hüquqazidd münasibət birbaşa onun siyasi fəaliyyəti ilə bağlıdır:** "Hüquq müstəvisində onun başına gələnlərlə bağlı Gürcüstan hökuməti məsuliyyət daşıyır. Sözün açığı, mövcud gerçəklik fonunda Saakaşvilinin bundan sonra Gürcüstanda, Ukraynada və ya digər bir ölkədə real siyasətlə məşğul olacağını zənn etmirəm. Azadlığa buraxılacağı təqdirdə o, Gürcüstanı birdəfəlik tərk edəcək. Xarici ölkədə isə sadəcə müalicəsi ilə məşğul olacaq".

Qərb ölkələrinin Saakaşvilinin taleyinə biganə yanaşdığını vurğulayan politoloq onun Gürcüstan həbsxanasında ölümə tərk ediləcəyini ehtimal edir: "Hazırda bütün dünyanın başı Rusiya-Ukrayna müharibəsinə qarışıb. Bu xüsusda eks-prezidentin həyatı birbaşa İvanişvili hakimiyyətinin insafına qalıb. Avropa İttifaqı Saakaşvilinin azadlığını tələb etsə də, hökumət bu barədə güzəştə getmədi. Hökumətin bu israrı fonunda proses Saakaşvilinin həbsxanada ölümü ilə də nəticələnə bilər".

**Şəymən Bayramova**

# Vətəndaşlar pullarını plastik kartlarda saxlamaq istəmir

## Ekspert hesab edir ki, bunun əsas səbəbi inamsızlıqla bağlıdır



***"Əslində vəsaitlərin plastik kartlarda saxlanması təhlükəsizlik baxımından daha əlverişlidir"***

**Azərbaycanda nağdsız ödənişlərin həcmi sürətlə artır. İnsanlar arasında təmasların azalması məcburiyyəti, həm müasir İKT və bank hesablaşmaları sisteminin təkmilləşdirilməsi, həm də dövlətin nağdsız hesablaşmaların artmasında maraqlı olması və bu prosesi dəstəkləməsi, stimullaşdırmasıdır.**

Belə ki, nağdsız ödənişlərin genişləndirilməsi üçün dövlət orqanları və bank sistemi tərəfindən stimullaşdırıcı tədbirlər həyata keçirilir. Məsələn, Dövlət Vergi Xidmətinin "ƏDV geri al" layihəsi çərçivəsində nağd ödəniş edənlər 5 faiz, nağdsız ödəniş edən istehlakçılar isə ödədikləri verginin 17,5 faizini geri alırlar. Banklar nağdsız ödəniş edənlər üçün vəsaitin müəyyən hissəsini bonus olaraq istehlakçılara geri qaytarırlar. Artıq insanlar da elektron ticarət və nağdsız ödənişlərin üstünlüklərini əyani şəkildə görür, vaxt itkisi və əlavə prosedurların olmaması, ödəmənin asanlılığı baxımından nə qədər əlverişli olduğunu başa düşür. Belə ki, kartla ödəniş zamanı vəsaitin xərclənməsini izləmək, onu geri qaytarmaq və ödənişi ləğv etmək mümkündür. Lakin hələ də bəzi insanlar pulları kart hesabında saxlamağa etibar etmir, maaş gələn kimi nağdlaşdırmağa üstünlük verir.

**Millət vəkili Vüqar Bayramovun "Şərq"ə açıqlamasına görə, nağdsız ödənişlərin inkişaf strategiyası 2026-cı ilədək davam etdiriləcək. Yeni strateji yanaşma nağdsız ödənişlərin inkişafı üçün əlavə stimul yaradacaq:** "Rəqəmsal texnologiyaların dinamik inkişafı pandemiya dövründə öz səmərəliliyini göstərib. İnternet bankçılıq, mobil bankçılıq artıb. Bundan başqa, elektron kommersiya böyüyüb. Rəqəmsallaşmanın yeni mərhələsi maliyyə ehtiyatlarını da artırır. Mərkəzi Bank (MB) həmçinin vətəndaşlarımızın nağdsız ödənişlərinin təmin olunması üçün bir sıra proqramlar reallaşdırıb. Nağdsız ödənişlərin əhatəsinin genişləndirilməsi maliyyə əməliyyatlarının şəffaf və sürətli aparılmasına imkan verir. Digər tərəfdən isə nağdsız ödənişlərin (bank kartları və ya virtual hesablaşmaların digər üsulları olmasından asılı olmayaraq) əsas üstünlüklərindən biri onların tətbiq edilməsinin rahat olmasıdır. Plastik kartlar və digər nağdsız ödəniş vasitələri ilə həm ölkə daxilində, həm də xaricdə alış-veriş üçün ödəniş imkanı olur.

Bu istiqamətdə həyata keçiriləcək tədbirlər, eyni zamanda elektron ödəniş alətlərindən istifadənin kütləviləşməsinə və yeni innovativ ödəniş həllərinin tətbiqinə əlverişli zəmin yaradacaq".

Millət vəkilinin sözlərinə görə, vətəndaşların pullarını plastik kartlarda saxlamaq istəməməsinin bir sıra səbəbləri var: "Səbəb inamsızlıqla bağlıdır. Əslində vəsaitlərin plastik kartlarda saxlanması təhlükəsizlik baxımından daha əlverişlidir. Düşünürəm ki, plastik kartlarla ödəniş imkanlarının məhdudluğu da əhalinin maaş və pensiyaları kartdan çəkməsinə şərait yaradan amillərdəndir. Vətəndaş bilsə ki, kartla hər yerdə rahatlıqla ödəniş edə biləcək, o zaman vəsaitini kartdan çəkməz".

**V.Bayramov bildirib ki, bir sıra banklar əməkhaqqı kartlarındakı vəsaitlərin əmanət kimi saxlanması ilə bağlı kampaniyalar keçirirlər:** "Bu zaman kart sahibinə saxlanan vəsaitin həcminə uyğun faiz ödənilir. Amma bu, geniş yayılmayıb. Buna görə də düşünürəm ki, əsas diqqət müvafiq infrastrukturun yaradılması, əhali arasında maarifləndirmə və stimullaşdırıcı tədbirlərin həyata keçirilməsinə yönəldilməlidir".

**Şəymən Bayramova**

# Göbələklərin əksəriyyəti zəhərlidir

## Heç də hamı onun yararlı olub-olmamasını ayırd edə bilmir



**Şamaxı rayonunda bir ailə göbələkdən zəhərlənib. APA-nın xəbərində bildirilir ki, zəhərlənməyə məruz qaldıqları ehtimal edilən şəxslər gecə saatlarında Şamaxı Rayon Xəstəxanasına çatdırıb. Ailə üzvləri - 1987-ci il təvəllüdlü Nəsirova Rəvanə Adil qızı, övladları 2010-cu il təvəllüdlü Nəsirov Namiq Amil oğlu və 2007-ci il təvəllüdlü Nəsirova Şəbnəm Amil qızı vəziyyətləri ağır olduğundan Bakıda xəstəxanalardan birinin toksikologiya şöbəsinə aparılıb.**

Göbələkdən zəhərlənmə halları da təəssüf ki, artır. Zəhərlənmələrə bəzən meşəlik ərazilərdən, çəmənliklərdən toplanan göbələklər, bəzən satışa çıxarılan, həmçinin də konservləşmiş gəbələklərdən baş verir. Əgər zəhərlənmə toplanmış təbii göbələkdən baş verirsə, burada onu toplayan şəxslərin bilgisizliyi əsas səbəbdir. Lakin bu da təəccüblüdür ki, bölgə əhalisi adətən bilikli olur. Zəhərli, qida üçün yararlı olub-olmayan göbələkləri tanıyırlar. Əslində, tanımalıdırlar. Göbələyi tanımadan toplamaq təhlükəlidir. Göbələk dadlı, həm vitaminlərlə zəngin qidadır. Bu əhalini cəlb edir. Amma göbələyin növlərini tanımaq, haradan toplandığı, haradan alındığı, hansı şəraitdə bişirildiyi də önəm daşıyır. Bunu **"Şərq"ə açıqlamasında qida məsələləri üzrə mütəxəssis Elsevər Fərzəliyev bildirdi. Mütəxəssis qeyd etdi ki, göbələklərin özünəməxsus mikro-florası var:**

- Göbələklərin böyük əksəriyyəti zəhərli komponentlərə malikdir. Bunu nəzərə alaraq göbələklərin qidalanmada istifadəsi zamanı qaydalara ciddi əməl edilməlidir. Göbələk toplandıqdan sonra 8 saat ərzində

***"Göbələklərin elə növləri var ki, qoşadırlar. Biri zəhərli, digəri zəhərsiz. Bunlar ilk görünüşdə bir-birinə çox oxşayır. Yalnız göbələk tanıyanlar, bu bitkilərə bələd olanlar hansının zəhərli, hansının zəhərsiz olduğunu ayırd edə bilir"***

istehlak edilməlidir. Onu uzun müddət saxlamaq olmaz. Yaxşı olar ki, göbələk toplandıqdan sonra qısa zamanda istehlak olunsun. Göbələk uzun müddət, qeyri-normal şəraitdə istifadə olunmadan qalırsa, tərkibindəki toksik maddələrdə parçalanma baş verir, bu da qida zəhərlənməsinə gətirib çıxarır. Göbələyin bişirilmə texnologiyasına da diqqət edilməlidir. Göbələk diqqətlə təmizlənməlidir, mütləq qaynadılmalı, qaynadıldığı su isə atılmalıdır. Çünki göbələk qaynadılarkən tərkibindəki toksik maddələrin çoxu suya ötürülür. Göbələk yalnız qaynadıldıqdan sonra qida üçün yararlı hala gəlir. Burada emal texnologiyasının da böyük əhəmiyyəti var. Ən təhlükəli qidalar balıq, süd məhsulları, həmçinin də göbələkdir. Çünki bu məhsullar düzgün şəraitdə saxlanmadıqda tərkibində toksiki maddələrdə dəyişmə baş verir. Normal halda faydalı olan elementlər anormal vəziyyətdə faydasız, hətta zəhərli komponentlərə çevrilirlər. Göbələk həm də allergik xüsusiyyətə malikdir. Allergiyası olanlar göbələkdən uzaq durmalıdırlar. Allergik reaksiyalar orqanizmdə ciddi fəsadlar yaradır. Nəfəs darlığına, nəfəsalmada çətinliyə səbəb olur, insan özünü boğulur kimi hiss edir.

**E.Fərzəliyev bildirdi ki, zəhərli-zəhərsiz göbələkləri heç də hamı ayırd edə bilmir. Tərkibində toksiki maddələr çox olduğundan hətta zəhərsiz hesab edilən göbələklər də saxlanma şəraiti və hazırlanma qaydası səhvdirsə, zəhərlənmələrə səbəb ola bilər.** Göbələklərlə bağlı elmi ədəbiyyatlarda çox yazılıb. Göbələklərin elə növləri var ki, qoşadırlar. Biri zəhərli, digəri zəhərsiz. Bunlar ilk görünüşdə bir-birinə çox oxşayır. Yalnız göbələk tanıyanlar, bu bitkilərə bələd olanlar hansının zəhərli, hansının zəhərsiz olduğunu ayırd edə bilir. İnsanlar şübhələndikləri göbələkləri, yaxşısı budur, toplamasın, almasın və yeməsinlər. Tam arxayın olduqda qəbul etsinlər. Həmçinin konservləşdirilmiş göbələk aldıqda da istifadə müddətinin bitib-bitmədiyinə diqqət edilməlidir. İstifadə müddəti bitmiş və ya çox qısa müddət qalmış konservləşdirilmiş məhsulları, o cümlədən də göbələkləri alıb istehlak etmək lazım deyil. Mütəxəssis qeyd etdi ki, son zamanlar göbələklə hazırlanan salatlar dəb halı aldığından bir çox insan konservləşdirilmiş göbələklərə meyl edir. Salatların tərkibindəki müxtəlif tərəvəzlərlə, mayonezlə reaksiyaya daxil olduqda zəhərlənmə baş verə bilir. Çünki insanlarımız bir-biriylə uyğunlaşan və uyğunlaşmayan ərzaqları tanımırlar, bu haqda bilgiyə sahib deyillər. Təhlükəli vəziyyət yaranırsa, qida qəbulundan sonra orqanizmdə mənfi hallar baş verirsə, insan özünü pis hiss edirsə, yaxşısı budur, dərhal həkimə müraciət edilsin.

**Məlahət Rzayeva**

# Boşanan xanımlar əziyyət çəkir

## Alimentlərin ödənilməsinin daha effektiv üsulları tapılmalı və icraya yönəldilməlidir

**Ötən il aliment tələbləri üzrə 100 milyon manat vəsait ödətdirilib. Bu məlumat Ədliyyə Nazirliyində 2022-ci ilin yekunlarına dair keçirilmiş geniş kollegiya iclasında açıqlanıb. Məlumatda qeyd olunur ki, vətəndaşların pozulmuş hüquqlarının bərpasında mühüm rol oynayan məhkəmə qərarlarının icrası üzrə təsirli tədbirlər davam etdirilərək yarım milyondan çox sənədin icrası təmin edilib, hüquqi və fiziki şəxslərə əvvəlki illə müqayisədə 2,4 dəfə çox - 1,4 milyard manat, o cümlədən aliment tələbləri üzrə 100 milyon manat vəsait ödətdirilib.**

**Aliment tələblərinin məhkəmənin qərarı ilə qarşılanması və məbləğin ödənilməsinin müsbət hal olduğunu bildirən "Təmiz dünya" Qadınlara Yardım İctimai Birliyinin sədri Mehriban Zeynalova qeyd etdi ki, problemin həlli üçün effektiv üsullar tapılması vacibdir:**

- Məhkəməyə müraciət, məhkəmə istintaqının aparılması, çıxarılan qərar və nəhayət, qərarın icrası bəzən uzun zaman aparır. Bizim İB-yə alimentin ödənməməsi şikayəti ilə müraciətlər çox olur və xanımlar məsələnin həllini xahiş edirlər. Bu vəziyyətdə müvafiq sənədlər toplanır, uşağın doğulması haqqında şəhadətnamə, ananın tənha olması və ya boşanma haqqında rəsmi sənəd və sair materiallar toplanır. Əgər uşağın atası məlumdursa, uşaq atasının soyadını daşıyırsa, iş asan olur. Amma atalıq müəyyən edilməyibsə, bunun üçün bir qədər çalışmaq, lazımi sənədləri əldə etmək lazım gəlir. Bəzən məlum olur ki, uşağın atası hansısa başqa ölkədə yaşayır. Bu zaman da məsələnin həlli çətinləşir. Həmin ölkədən rəsmi cavab, hansısa sənədin əldə edilməsi vaxt aparır, hətta mümkünsüz olan məqamlar da baş verir. Bu cür qeyri-standart hallar nəzərə alınmaqla alimentlərin ödənilməsinin daha effektiv üsulları tapılmalı və icraya yönəldilməlidir. Bu məsələdə ən çox dəstəklənən təklif Aliment Fondunun yaradılmasıdır. Ailə Məcəlləsinə əsasən, aliment ödənilməsi barədə razılıq olmadıqda uşaqlar üçün onların valideynlərindən məhkəmə tərəfindən bir uşağa görə qazancın, yaxud da gəlirlərin 1/4 hissəsi, 2 uşağa görə qazancın və ya gəlirlərin 1/3 hissəsi, 3 və daha çox uşağa görə isə qazancın və yaxud gəlirlərin yarısı aliment olaraq hesablanır. Alimentin miqdarı məhkəmə tərəfindən müəyyən nüanslar nəzərə alınmaqla azaldıla və ya artırıla bilər. Aliment öhdəliyi olan şəxs işləmirsə və ya heç bir gəliri yoxdursa, bu zaman məhkəmə həmin şəxsə alimentin ödənilməsini sabit pul məbləğində təyin edir. Alimentin sabit pul məbləği uşaqlar üçün yaşayış minimumuna uyğun olaraq hesablanır. Bu payların miqdarı məhkəmə tərəfindən tərəflərin ailə və maddi vəziyyəti, eləcə də diqqətəlayiq olan başqa hallar nəzərə alınmaqla azaldıla və artırıla bilər. Hesab edirəm ki, hazırda işlək qanunlara (Ailə Məcəlləsi, Əmək Məcəlləsi) bir sıra lazımi dəyişiklik və əlavələr etməklə problemin həllində irəliləyişə nail olmaq mümkündür. Aliment ödəməyənlərə qarşı ilkin xəbərdarlıq, cərimə, daha sonra həbs qərarı verilir. Lakin bu, vəziyyətdən çıxış yolu deyil. Aliment ödəməyən atanın həbsdə olması övladına təkbaşına qulluq göstərmək məcburiyyətində qalmış qadına hansı üstünlük verir və ya onun maddi vəziyyəti bununla yaxşılaşırmı? Cəza mexanizmi olmalıdır, sözsüz. Lakin biz öncə ehtiyac içində olan uşağı və qadını düşünməliyik. Bunun üçün də sosial paketlər olmalı, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Ədliyyə Nazirliyi ilə birgə işləməli, övladı ilə tənha, maddi sıxıntı içində qalanlar, heç bir yerdən gəliri olmayan və aliment



***Bu məsələdə ən çox dəstəklənən təklif Aliment Fondunun yaradılmasıdır***

ödənilməsi də mümkün olmayan məhkəmə işləri barədə ƏƏSMN-yə məlumat verilməli, nazirlik də yardım etməlidir.

**M.Zeynalova ən optimal yol kimi Aliment Fondunun yaradılmasını görür:**

- Bir çox ölkələrdə Aliment Fondu institutu fəaliyyət göstərir və alimentdən məhrum qalmış uşaqlar bunun sayəsində maddi cəhətdən təmin edilə bilir. Aliment ödənilməməsinə cərimələrin miqdarının artırılması, əmlakın müsadirə olunması da mümkündür. Lakin bəzən müsadirə ediləsi əmlak da olmur. Bəzən insanlar gəlirlərini, əmlaklarını gizlədə bilir. "Heç bir yerdə işləməyən", "işsiz" atanı nə qədər istəyirsən cərimə et, nə faydası?! Ondansa, maddi sıxıntı içində qalmış ana və körpəni sosial paketlər sayəsində himayə etmək daha normal yanaşmadır. Daha yaxşı olar ki, aliment ödəmək öhdəliyi olan, lakin bunu icra etməmiş, həmçinin barəsində məhkəmə qərarı icra olunmamış şəxslərin ölkədən çıxışına qadağa qoyulsun. Zəhmət çəksin, əvvəlcə övladının ehtiyaclarını ödəsin, çörək pulunu versin, sonra hara istəyir, çıxıb getsin.

**Məlahət Rzayeva**

# Azərbaycanda avtomobil kirayə bazarı bərbad gündədir

## Bu xidmətdən əsasən turistlər və ölkəmizə səfərə gələn xaricdəki soydaşlarımız yararlanır



**Xarici ölkələrdə avtomobil icarəsi adlanan sahə sürətlə inkişaf edib. Avtomobil icarəsi biznesi dünyada kifayət qədər inkişaf etsə də, Azərbaycanda bu sahə hələ bir o qədər də özünü büruzə verə bilmir.**

**Azərbaycanda avtomobil kirayə bazarının qənaətbəxş səviyyədə olmadığını vurğulayan nəqliyyat üzrə ekspert Eldəniz Cəfərov "Şərq"ə açıqlamasında deyib ki, bu sahədə fəaliyyət göstərən şirkət çox olsa da, keyfiyyətli xidmət göstərən şirkət azdır.** Ekspert hesab edir ki, əsas problemlərdən biri kirayə verilən avtomobillərin kasko sığortasının olmamasıdır. Bunun da birinci səbəbi sığorta şirkətləri ilə "rent a car"lar arasında yaranan mübahisələrdir: "Səyahət zamanı qəza baş verirsə, sürücü gözləmir və maşın dərhal ərazidən götürülür. Bəzi hallarda baş verən hadisəni gizlətməyə çalışır. Qəzanın baş verdiyi yalnız avtomobil təhvil verilərkən məlum olur. Sığorta şirkəti də hadisəni yerində qeydə almadığı üçün ödəniş etməkdən imtina edir. "Rent a car" şirkətləri də müştərilərlə müqavilə bağlayarkən bunu nəzərə alır. Sığortaya görə müştəridən əlavə pul alır, sığortasız avtomobil istəyən müştəri isə ola biləcək qəza ilə bağlı xərcləri əvvəlcədən öz üzərinə götürməli olur".

Kirayə avtomobil xidmətindən daha çox xarici turistlərin istifadə etdiyini vurğulayan E.Cəfərov bildirib ki, Azərbaycanda avtomobil kirayəsi sahəsində əsas müştərilər xarici turistlər və ölkəmizə səfərə gələn xaricdəki soydaşlarımızdır. Yəni Azərbaycanda kirayə avtomobil sahəsi daha çox turizm sektoru ilə əlaqəli fəaliyyət göstərir və bu xidmətə tələb yay mövsümündə daha çox artır: "Yay mövsümündə C seqmentində olan ekonom avtomobillərin kirayəsinə tələb yüksək olur. Premium və biznes modellər, minibusları isə bir günlük də kirayə etmək olur".

**Şəymən**




## 5G Azərbaycanın ən sürətli şəbəkəsinin təqdimatında!

**Bakcell 5G texnologiyasını istifadəyə verib. Hazırda sınaq rejimində fəaliyyət göstərən 5G şəbəkəsi Bakının müxtəlif ərazilərində - Fəvvarələr Meydanında, Xaqani bağında (Molokan bağı) və "Dəniz Mall" ərazisində mövcuddur.**

Azərbaycanın ən sürətli mobil şəbəkəsinin təqdimatında 5G texnologiyasını Huawei, Xiaomi, OnePlus, Poco vəVivosmartfonlarınınsahibləri istifadə edə bilər.

Bakcell 5G texnologiyadan istifadə edən abunəçilərinə 5GB balans da hədiyyə edir. Yuxarıda adları çəkilən mobil cihaz sahibləri 5G-nin mövcud olduğu ərazilərdə olarkən telefonda *501*1# kodunu yığmalıdırlar. Əgər abunəçinin cihazı 5G texnologiyasını dəstəkləyirsə, onun nömrəsinin balansına 5 GB həcmində 5G trafiki hədiyyə olunacaq. Bu balans 1 saat ərzində 5G sınaqları keçirilən ərazilərdə istifadə edilə bilər.

Ətraflı məlumatı 5g.bakcell.com səhifəsindən əldə etmək mümkündür.

Bakcell Azərbaycanda eSIM və VoLTE texnologiyalarını tətbiq edən ilk mobil operatordur. Bakcell şəbəkəsi Ookla® tərəfindən "Azərbaycanın ən sürətli mobil şəbəkəsi" kimi tanınır.

**Elanlar**

Ələsov Elbrus Savalan oğluna məxsus Bakı şəhəri, Binəqədi ray., A.Kunanbayev küç., ev 66, 134 saylı mənzilin çıxarışı itdiyi üçün etibarsız sayılır.

Ələsov Elbrus Savalan oğluna məxsus Azərbaycan Respublikasının Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi, torpaq sahəsinin planı və ölçüsü Şamaxı rayon Aqrar İslahat Komissiyasının 11.11.1998-ci il tarixli 16 saylı qərarı ilə sənəd itdiyi üçün etibarsız sayılır.

Mərhum Dadaşov Mübariz Əliağa oğluna məxsus Bakı şəhəri, Yasamal rayonu, Bəşir Səfəroğlu küçəsi 74 ünvanının çıxarışı itdiyi üçün etibarsız sayılır.

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Aygün Tahir, Nihat Müzəffər, Sücayət Mehti

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330
Tirajı: 1550 Sifariş: 315



## Maraqlı faktlar ortaya çıxıb

Bir məktəbdə 7 müəllim və 1 şagird var

**Gürcüstan məktəblərində maraqlı vəziyyət yaranıb. Məktəblərdə müəllim və şagirdlərin sayı ilə bağlı aparılan araşdırmalar zamanı maraqlı faktlar ortaya çıxıb.**

Azərtac xəbər verir ki, bu barədə Gürcüstan mətbuatı məlumat yayıb.

Bildirilir ki, Gürcüstanda 2 məktəbin hər birində bir şagird təhsil alır. Gürcüstanın Duşeti rayonunun Çarğalı kəndindəki ictimai məktəbdə 7 müəllim və 1 şagird, Kaspi rayonunun Qudaleti kəndindəki ictimai məktəbdə isə 4 müəllim və 1 şagird var. Bundan başqa, ölkə ərazisində daha 4 kənddəki məktəblərin hər birində 2 şagird, 9 məktəbdə 3 şagird, 6 məktəbdə 4 şagird, 8 məktəbdə isə 5 şagird təhsil alır. Ümumiyyətlə isə Gürcüstanda 288 məktəbdə 1-dən 30-dək şagird təhsil alır.

*Qeyd edək ki, bu gün ümumiyyətlə Gürcüstanda 2085 məktəb fəaliyyət göstərir. Onlardan 116-sı Azərbaycan məktəbidir. Bu məktəblərdə 632 min 726 şagirdə təhsil alır. Gürcüstanda orta təhsil 12 illikdir.*

## Xəstəxanaya yerləşdirildi

Pikenin yeni sevgilisi təzyiqlərə dözmədi



**Pikenin yeni sevgilisi Klara Çia media tərəfindən özünə qarşı olan təzyiqlərə dözə bilməyib.**

Oxu.az xəbər verir ki, Şakiranın da təsiri ilə medianın onunla bağlı paylaşımlarına tab gətirə bilməyən Klara psixoloji sarsıntı keçirib və xəstəxanaya yerləşdirilib. Çianın Barselonada yerləşən Quironsalud xəstəxanasında müalicə aldığı məlum olub. 23 yaşlı Çia Pike ilə münasibəti üzə çıxdıqdan sonra medianın diqqət mərkəzində olub. Pike bu yaxınlarda ilk dəfə "Instagram" hesabında Çia ilə şəklini paylaşdıqdan sonra isə sosial mediada bununla bağlı ağır şərhlər verilib. Çia, hətta bir çox insan tərəfindən təhqir olunub.

Bu təzyiqləri həzm edə bilməyən gənc qadın psixoloji sarsıntı keçirib.



# 24 saat gözləyin!

## Qriplə bağlı təhlükəli xəbərdarlıq





**El arasında qısaca qrip adıyla tanınan, respirator xəstəliklər (yuxarı-tənəffüs yollarının iltihabı xəstəliyi) geniş yayıldığından tibb mütəxəssisləri əhaliyə ciddi xəbərdarlıq edib. "Şərq" "NTV,com.tr"yə istinadən bildirir ki, Türkiyə Səhiyyə Nazirliyi uşaqlar və böyüklər arasında yayılan Strep-A bakteriyasının səbəb olduğu yoluxucu xəstəliklə bağlı əhaliyə müraciət edib.**

Müraciətdə qeyd edilir ki, xəstələr antibiotik müalicəsi qəbul edirsə, müalicənin 24 saatı tamamlanana qədər gözləməli, bu vaxt ərzində işə, ictimai yerlərə getməməli, müalicə alan uşaqları da məktəbə göndərməməlidirlər. Çünki virus yoluxuculuq qabiliyyətini müalicə başlandıqdan 24 saat sonra itirməyə başlayır. Virusun əhali arasında geniş yayılmasının, yoluxanların sayının çoxalmasının əsas səbəbi insanların xəstə halda işə, uşaqlarınsa məktəbə getməsidir. Beləliklə, insanlar bir-birini yoluxdurur.

Müraciətdə xəstəliyin əlamətləri də qeyd edilib. "A qrupu beta-hemolitik streptokoklar" boğaz, burun və dəridə yaşayan bakteriyalar, əksər hallarda boğazda iltihab şəklində özünü göstərir, qızdırma, boğaz ağrısı, dəri tökülməsiylə müşayiət olunur. Hazırda bu virusa qarşı peyvənd yoxdur. Strep-A o zaman kəskin ağırlaşmaya səbəb olur ki, ağ ciyərlərin toxumasına zərər verir. Xəstəlik anidən başlayır, boğaz ağrısıyla yanaşı, baş ağrıları, öskürək, burun axması, soyuqlama əlamətləri, limfa düyünlərində böyümə, halsızlıq, mədə bulanması, qarın ağırısıyla da davam edir. Bu xəstəlikdə qabaqlayıcı tədbirlər önəmlidir. Antibiotik müalicəsi isə yalnız həkimin tövsiyəsi və göstərişi ilə aparılmalıdır. Uşaqlarda qızdırma və boğaz ağrısı varsa, hərarətsalıcı preparatlar qızdırmanı aşağı salmırsa, həkimə müraciət edilməlidir. Hərarəti 38 dərəcədən yuxarı olan 2 ayadək körpələr, həmçinin hərarəti 39-dan yuxarı olan 3 aydan böyük körpələr mütləq həkimə göstərilməlidir.

**Məlahət**

## Suada Hacızadə həyat yoldaşının yanına köçüb

Van Dammın azərbaycanlı gəlini Amerikada şok yaşadı



**Açıq fikirli mehriban insanlar, kovboylar, möhtəşəm musiqi, azad ruhlar və s. Fərqli dünya. İlk ayda böyük bir mədəniyyət şoku yaşadım, artıq ikinci aydır ki, burdayam, olduğum kimi qalsam da, eyni dalğaya girir, həm qəbul edildiyimi, həm də özümü evdəki kimi hiss edirəm. Bu sözləri dünya şöhrətli aktyor Jan-Klod Van Dammın oğlu Kristofer Dammla ailə quran azərbaycanlı pianoçu Suada Hacızadə deyib. Həyat yoldaşının yanına köçən musiqiçi Amerika həyatından söz açıb və bildirib ki, geniş düşüncəli insanların əhatəsində olmaqdan məmnundur və bu ölkədə özünü çox azad hiss edir.**

**"Maraqlıdır ki, sən yeni küçələr kəşf etmədən, yemək yeyib muzeylərə getmədən də, sadə ünsiyyətlə olduğun ölkənin ab-havasına girə və rahatlaşa bilərsən. İnsanlar öz ölkələrinin mədəniyyətini müxtəlif yollarla əks etdirirlər və bu, gözəldir. Nə qədər sima, nə qədər hekayə, nə qədər duyğu", - Suada qeyd edib.**

***Qeyd edək ki, uşaqlıqdan musiqi ilə məşğul olan Suada Hacızadə Dövlət Filarmoniyasında Dövlət Simfonik Orkestri və Kamera Orkestrləri ilə konsertlər verib. Rusiya Mədəniyyət Mərkəzinin keçirdiyi coxsaylı tədbirlərdə və digər dövlət, ictimai və mədəniyyət tədbirlərinin fəal iştirakçısı olub. Suada Hacızadə həm də Prezident mükafatçısıdır. (publika)***

## Hollivudu futbola dəyişən aktrisa

Sevimli futbolçusu var - Lionel Messi




**Cenna Orteqa Hollivudun ən cazibədar aktrisalarından biridir. O, təkcə çəkiliş meydançalarını deyil, futbol meydanlarını da silkələməyi bacarır.**

**20 yaşlı aktrisa uzun müddət futbol oynayıb. Ancaq vətəni ABŞ-da idmanın şahı ən populyar idman növü deyil. Cenna hətta futbolu aktyorluqdan üstün tutaraq fəaliyyət istiqamətini dəyişməyi də düşünüb.**

**Kaliforniyada anadan olan Orteqa əslən meksikalıdır. Atası və böyük qardaşının futbola olan sevgisi onda bu idman növünə həvəs yaradır. Nəticədə erkən yaşlarından ABŞ-ın əsas akademiyalarından biri olan Amerika Gənclər Futbol Təşkilatına üzv olur. London Donovan və Aleks Morqan kimi tanınmış futbolçular bu idman növündəki ilk addımlarını məhz orada atıblar.**

**Cenna son vaxtlar daha çox futbol oynayır. Kaliforniyanı təmsil edən qızlardan ibarət "Desert Yunayted" klubunun üzvüdür. Deməki olar ki, o, futbolla yaşayır. Aktrisa olmağı yadına belə düşmür.(publika)**

**Aktrisanın fanatı olduğu konkret klub olmas da, sevimli futbolçusu var - Lionel Messi. O, müsahibəsində argentinalı superulduzu tarixin ən böyük futbolçusu adlandırıb.**



# Parkinsonun müalicəsində yenilik

## Kök hüceyrə terapiyası uğurlu nəticələr verib



**Çin alimlərinin parkinson xəstəliyinə qarşı inkişaf etdirdiyi kök hüceyrə terapiyasının meymunlar üzərində aparılan təcrübədə təsirli nəticə verdiyi açıqlanıb. Müalicə olunan heyvanların 2-3 həftə ərzində sağalmağa başladığı və kök hüceyrə terapiyasının təsirinin qalıcı olduğu bildirilib. Müalicənin insanlar üzərində sınaqlarına yaxın günlərdə başlanacaq.**

"South China Morning Post" qəzetinin xəbərinə görə,

"Şərq" xarici mediaya istinadən xəbər verir ki, Çinin Kunmin Elm və Texnologiya Universitetinin alimləri meymun beyninə kök hüceyrələri köçürərək Parkinson xəstəliyinin əlamətlərini aradan qaldırmağa nail olublar.

Tədqiqatçılar, kök hüceyrə transplantasiyasının parkinson xəstəliyi səbəbiylə beyin funksiyaları pozulan heyvanların 2-3 həftə ərzində hətta hərəkət edə biləcəyini və ayağa qalxıb özbaşına qidalana bilmələrini təmin etdiyini bildirdilər.

5 il izlənilən heyvanlarda müalicə effektinin qalıcı olduğu müşahidə edilib.

Tədqiqatçılar müalicə üçün insan göbək kordonundan alınan mezenximal kök hüceyrələrə dopamini sintez etməyə imkan verən üç geni köçürdülər.

Müalicə siçanlar üzərində sınaqdan keçirildikdən və uğurlu alındıqdan sonra 2017-ci ildə meymunlarla təcrübəyə başlanılıb.

Əgər genetik olaraq dəyişdirilmiş kök hüceyrələr insanlarda uğurlu olarsa, bu, parkinson üçün ucuz və təsirli bir müalicə ola bilər.

Alimlər gələcəkdə müalicənin təhlükəsizliyi və tətbiqi ilə bağlı detallar üzərində işləyəcəklər. Daha sonra insanlar üzərində genişmiqyaslı klinik sınaqların keçirilməsi planlaşdırılır.

Araşdırmanın nəticələri "Parkinson's Disease" beynəlxalq mütəxəssis tibbi jurnalında dərc olunub.

Dünyada 60 yaşdan yuxarı insanların ən az yüzdə birində görülən parkinson xəstəliyi, dövrün ən çox görülən degenerativ beyin xəstəliyidir.

Səbəbi hələ bilinməyən xəstəliyin beyində bədənin hərəkətlərini tənzimləyən dopamin fermentini ifraz edən sinir hüceyrələrinin azalması ilə tətikləndiyi düşünülür.

**Turan**

## Uşaqların əyri duruşu bəzən normaldır

Onurğanın əyriliyi 50 dərəcə və ya daha çox olduqda, anormal sayılır



**"Uşaqların əyri duruşu ailələrin əsas problemlərindən biridir. Ancaq onurğadakı əyriliklər əksər hallarda normaldır. Kifoz və ya skalioz deyiləndə isə onurğadakı əyriliklərin həddindən artıq səviyyədə olduğu nəzərdə tutulur".**

*Fizioterapevt-reabilitoloq Ramin Quliyev "Şərq"ə açıqlamasında deyib ki, kifoz müxtəlif səbəblərlə inkişaf edir.* Ümumiyyətlə, əyri oturma-əyri duruş, mövqeyi onurğanın üzərindəki əyrilikləri zamanla təbii meylin artmasına səbəb olur: "Bu duruşla əlaqəli kifoz adətən yetkinlik dövründə inkişaf edir və nadir hallarda ağrı verir. Bu vəziyyətdə qarındakı, beldəki və ayaqda əzələlərin inkişafına mane olur.

Digər növ, yaşlılarda osteoporozla əlaqəli kifoz olur. Osteoporozda sümüklər zəif və nazikdir. Digər fəqərə üzərində təzyiq fəqərə cismin ön hissəsinin hündürlüyünü azaldır, nəticədə çəki ağır yüklənir və əyilmə baş verir.

Yuxarıda təsvir edilən funksional (və ya inkişaf edən) kifoz daha şiddətli kifozlar doğumdan və ya xəstəliklərdən asılı ola bilər.

Cərrahi müalicə ilə kifozun qarşısını almaq və yaxşılaşdırmaq olar. Lakin ümumiyyətlə, uşaqlarda boy qısalığı, onurğanın əyriliyi 50 dərəcə və ya daha çox olduqda anormal sayılır. Uşaq böyüdükcə, onlarda əyriliklər də artır. Ancaq ki, məşq proqramı ilə bu problemin qarşısını almaq və kifozun düzəldilməsi mümkündür. Ağrı olduğunda isə ağrıkəsicilər və istirahət məsləhət görülür. Uşağın böyümə dövründə, bəzən böyümənin sonuna qədər bir korsetin istifadəsi böyümənin artmasına maneə törədər. Kifoz 75 dərəcədən artıq olduqda cərrahi baxış tövsiyə olunur. Cərrahi müdaxilə kifozun düzəldilməsinə və inkişafın qarşısını almağa kömək edir".

**Şəymən**

## ABŞ 30 milyonluq PUA-nı Ukraynaya 1 dollara satacaq



**Amerikanın General "Atomics" kompaniyası Ukraynaya sərfəli təklif irəli sürüb.**

Bakupost.az xəbər verir ki, şirkət MQ-9 pilotsuz uçuş aparatını 1 dollara sata biləcəyini açıqlayıb.

Bu barədə "The Wall Street Journal" qəzeti yazıb.

Belə ki, həmin aparatın təkcə hazırlanması 10 milyona, illik texniki xidməti isə 8 milyondur.

Qeyd edək ki, "MQ-9"un bazar satış qiyməti 30 milyon dollara yaxındır.

Bu PUA-lar 2020-ci ildə general Qasım Süleymaninin öldürülməsi zamanı istifadə olunub.

Ukrayna prezidenti Vladimir Zelenski Co Baydendən uzaq məsafəyə hədəfli raket sistemləri və MQ-9 alınması üçün müraciət etmişdi. Bu vaxta qədər Pentaqon PUA-ların Ukraynaya verilməsi barədə qərar verə bilmirdi.